Günün sözü

**Prezident İlham Əliyev:**

**Kütləvi minalanma qarşımızda duran ən böyük çətinlikdir və bu, yenidənqurma işlərini, məcburi köçkünlərin qayıdışını ləngidir. İşğal dövründə Ermənistan həmin ərazilərə 1 milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 300-dək Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıb.**

Səhifə ⇨ 7




Yeni qərar neft bazarına necə təsir edəcək?

İslama zidd rejimin terror xronologiyası



Səhifə ⇨ 4


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 69 (30185) 5 aprel 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Prezident İlham Əliyev 4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib.**

Dövlətimizin başçısının paylaşımında qeyd olunub: “4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günüdür. Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 30 il ərzində 1 milyondan çox mina basdırmışdır. Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 1990-cı illərin əvvəlindən 3300-dən çox vətəndaşımız mina qurbanı olmuşdur. Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan etibarən Ermənistanın mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı həlak olmuş və ya ağır yaralanmışdır.



Azərbaycan humanitar minatəmizləməni milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan edəcək. Ölkəmiz humanitar minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Azərbaycan həm də Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifi ilə çıxış etmişdir.

Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır. Müasir texnologiyalara əsaslanan humanitar minatəmizləmə və mina sahəsində maarifləndirmə bu işlərin tərkib hissəsidir. Mən öz həyatını təhlükə altına ataraq gecə-gündüz çalışan minatəmizləyənlərimizin fəaliyyətini yüksək qiymətləndirirəm. Dünyada mina terroruna son qoymaq üçün beynəlxalq səylər artırılmalıdır”.

***AZƏRTAC***

## Prezident İlham Əliyev tviterdə paylaşımında Türkiyə Prezidentinə təşəkkür edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib.**



Dövlətimizin başçısı bununla bağlı tviterdə paylaşım edib.

Azərbaycan Prezidentinin paylaşımında qeyd olunub: “Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! “Togg” Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir”.

Xatırladaq ki, aprelin 4-də Türkiyənin ilk yerli elektromobili “Togg” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviterdə bununla bağlı paylaşım edərək xoş arzularını bildirib. Türkiyə Prezidentinin təbrik tvitində qeyd olunub: “Qardaşım İlham Əliyev də Türkiyənin qüruru “Togg”u təhvil aldı. Xeyirli olsun. Allah gözəl günlərdə istifadə etməyi nəsib etsin, qardaşım”.

***AZƏRTAC***

# Prezident İlham Əliyev “Azəri-Mərkəzi-Şərqi” platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində “Azəri-Mərkəzi-Şərqi” platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib.**

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və “Azəri-Mərkəzi-Şərqi” layihəsinin Baş direktoru Nil Filips dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, “Azəri-Mərkəzi-Şərqi” layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə “Azəri-Çıraq-Günəşli” (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində - “Mərkəzi Azəri” və “Şərqi Azəri” platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG “Faza 2” sualtı ixrac kəmərlərinə qoşulacaq.

Bundan əlavə, laya vurulan suları “Mərkəzi Azəri” kompressor və suvurma platformasından “Azəri-Mərkəzi-Şərqi” qurğularına nəql etmək məqsədilə “Azəri-Mərkəzi-Şərqi” və “Şərqi Azəri” platformaları arasında suvurma boru xətti olacaq.

Məlumat verildi ki, “Azəri-Mərkəzi-Şərqi” platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Üst modullar Bayılda yerləşən tikinti-quraşdırma sahəsində “Azfen” şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Üst modulların tikinti işlərinin kulminasiya nöqtəsi Xəzərdə BP-nin ilk dəfə icra etdiyi “qaldırma və sürüşdürmə” əməliyyatı olub. Bu əməliyyat zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə “Azəri-Mərkəzi-Şərqi” platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib.

Layihənin pik dövründə üst modulların tikintisi işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub.

*(ardı 2-ci səhifədə)*

Səhifə ⇨ 4



İrəvanda ara qarışıb, məzhəb itib

Böyük Qələbənin müjdəsi – Aprel döyüşləri



Səhifə ⇨ 8

Qərbin ikili standartları rus əsgərlərinin çəkmələrində



Səhifə ⇨ 10

# Şuşanın bütün kəndlərinə qayıdacağıq!

Səhifə ⇨ 3

Şamil Ayrım: “AK Partiya seçki kampaniyasını musiqisiz, sakit aparacaq”



Səhifə ⇨ 4

“Zəngəzur ideoloqu”nun uğursuz canfəşanlığı




Səhifə ⇨ 9

Səhifə ⇨ 9



Güneydə türk dilində kitabların “soyqırımı”

Finlandiya NATO-nun 31-ci üzvü oldu



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev “Azəri-Mərkəzi-Şərqi” platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib





*(əvvəli 1-ci səhifədə)*

Sonra görülən işlərlə bağlı videoçarx nümayiş olundu.

Platforma Səngəçal terminalından, yəni, uzaq məsafədən idarə ediləcək. İdarəetmə mexanizminə avtomatlaşdırılmış innovativ sistem daxil edilib.

**Yeni “Azəri-Mərkəzi-Şərqi” platformasının əməliyyatlar üzrə meneceri Fuad İsmayılov:** Salam, hörmətli cənab Prezident. Biz hazırda platformanın yaşayış blokunda əməliyyatların idarə olunması mərkəzindəyik. Bu mərkəzin əsas iş prinsipi Səngəçal terminalındakı idarəetmə otağında və platforma arasında rabitə əlaqələri kəsildikdə və fövqəladə vəziyyətdə bütün əməliyyatları buradan təşkil etməkdir.

Cənab Prezident, onu da fəxrlə qeyd etmək istəyirəm ki, bu, BP şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarəedilən platformasıdır. Hazırda bizim əməkdaşımız Səngəçal terminalındakı əsas idarəetmə otağından Sizi salamlayacaq.

**Baş operator Seyidağa Kərimli:** Salam, hörmətli cənab Prezident. Mən Səngəçal terminalındakı yeni “Azəri-Mərkəzi-Şərqi” platformasının əsas idarəetmə otağının baş operatoruyam. Hazırda buradan bütün əməliyyatlarımızın idarə olunduğu nəzarət otağındayam. Burada tətbiq olunan texnologiya ən müasir, sınaqdan keçmiş və beynəlxalq standartlara uyğundur.

Cənab Prezident, BP şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarə prinsipi çərçivəsində əsas idarəetmə otağımız dəniz platformasından, ümumiyyətlə, qaz quyularının istismarı, alınmış xam neft və qazın ilkin ayrılması və nəqli prosesləri daxil olmaqla, bütün əməliyyatların idarə edilməsi üçün layihələndirilmişdir. Diqqətinizə görə minnətdaram.

**Prezident İlham Əliyev:** Təbrik edirəm. Sizə uğurlar.

**Əməkdaşlar:** Çox sağ olun. Təşəkkür edirik.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz “Azəri-Mərkəzi-Şərqi” platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basdılar.

Bildirildi ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra “Azəri-Mərkəzi-Şərqi” platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

Xatırladaq ki, “Azəri-Mərkəzi-Şərqi” platformasının dayaq bloku ötən il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınıb.

Bütün istismar sınaqları bitdikdən sonra dayaq bloku dənizə yola salınıb və suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılaraq üst modulları qəbul etməyə artıq hazırdır.

Qeyd edək ki, “Azəri-Mərkəzi-Şərqi” layihəsi üzrə tikinti işləri 2019-cu ildə başlanıb və iş həcminin 85 faizi artıq tamamlanıb. Layihənin pik dövründə tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb edilib.

Sonda xatirə şəkli çəkdirildi.

# İ.İ.Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2023-cü il**

# İ.İ.Kərimovun Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilsin.

**2.** Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini Sarvan Elxan oğlu Cəfərova həvalə edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2023-cü il**

# Seneqal Respublikasının Prezidenti Zati-aliləri cənab Maki Salla

Hörmətli cənab Prezident,

Seneqal Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

İnanıram ki, Azərbaycan-Seneqal münasibətləri dövlətlərimizin və xalqlarımızın mənafeləri naminə bundan sonra da həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə uğurla inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Seneqal xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2023-cü il**

# Türkiyənin ilk yerli elektromobili “Togg” Prezident İlham Əliyevə təqdim olundu





**Aprelin 4-də Türkiyənin ilk yerli elektromobili “Togg” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Dövlətimizin başçısı əvvəlcə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank, “Togg” şirkətinin baş icraçı direktoru və idarə heyətinin üzvləri ilə görüşdü.**

**Prezident İlham Əliyev**: Bir daha salaməleyküm.

**Mustafa Varank**: Hörmətli cənab Prezidentim, xoş gəldiniz.

**Prezident İlham Əliyev**: Xoş gördük.

Türkiyə Palatalar və Birjalar Birliyinin rəhbəri **Rifat Hisarcıklıoğlu**: Salaməleyküm, cənab Prezidentim, necəsiniz?

**Prezident İlham Əliyev**: Salam, xoş gördük. Sizi gözləyirdik.

**Rifat Hisarcıklıoğlu**: Allah razı olsun. Cənab Prezidentim, gödəkcəni geyinərsinizmi?

**Prezident İlham Əliyev**: Təbii ki, geyinərəm.

**Rifat Hisarcıklıoğlu:** Ölçünü də tam tutdurmuşuq. Cənab Prezidentim, buranı ilk dəfə görürəm. Mənzərə möhtəşəmdir.

**Prezident İlham Əliyev**: Bura Bakının ən gözəl, ən mənzərəli yeridir. Ona görə mən bu yeri seçdim.

Xatirə şəkilləri çəkdirildi.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank “Togg” elektromobilinin T10X modelinin açarını dövlətimizin başçısına təqdim etdi.

**Mustafa Varank**: Hörmətli cənab Prezidentim, hörmətli Prezidentimizin salamlarını gətirdik.

**Prezident İlham Əliyev**: Əleykümsalam.

**Mustafa Varank**: Türkiyədən ikinci avtomobili Sizə təqdim etmiş oluruq. Bütün türk xalqı ikinci avtomobilin Azərbaycana göndərilməsindən çox məmnundur. Xeyirli-uğurlu olsun. İnşallah, gözəl günlərdə istifadə edərsiniz.

**Prezident İlham Əliyev**: Çox sağ olun, təşəkkür edirəm. İlk növbədə, Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkürümü bildirirəm ki, ikinci avtomobilin mənə verilməsini tövsiyə edib. Sizə də təşəkkür edirəm, ilk növbədə, bu gözəl avtomobili istehsal etdiyiniz üçün. Bu, Türkiyənin, Türkiyə sənayesinin növbəti böyük bir uğurudur. Bu hədiyyəni mənə təqdim etdiyiniz üçün xüsusi təşəkkürümü bildirmək istəyirəm.

**Mustafa Varank**: Xeyirli olsun.

Sonra Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Dövlətimizin başçısı “Togg” elektromobilini idarə etdi.

Qeyd edək ki, 2022-ci il oktyabrın 29-da təqdimatı keçirilən Türkiyənin milli istehsalı olan “Togg” elektromobilinin ilk sifarişçilərindən biri də dövlətimizin başçısı olub. Ötən il noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon söhbəti zamanı dövlətimizin başçısı Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası “Togg”un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata açıqlamasında həmin telefon danışığı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin iki ədəd “Togg” elektromobili almaq üçün sifariş verdiyini bildirmişdi.

İlk avtomobil ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana təqdim olunub.

Xatırladaq ki, “Togg”un kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi ötən il oktyabrın 29-da keçirilib. Zavod Bursa vilayətinin Gemlik rayonunda inşa olunub. 2020-ci ildə təməli qoyulan zavodun inşası iki ilə tamamlanıb. Zavodun açılışı ilə yerli avtomobilin kütləvi istehsalı prosesi başlanıb. Tədbirdə iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Togg” elektromobilini sınaqdan keçirib. Rəcəb Tayyib Ərdoğan bildirib ki, il ərzində 175 min avtomobil istehsal olunacaq, 2030-cu ilə qədər istehsal 1 milyonu ötəcək.

Qeyd edək ki, “Togg” elektromobilləri “Pamukkale”, “Anadolu”, “Gemlik”, “Kula”, “Oltu” və “Kapadokya” olmaqla altı rəngdə istehsal olunur. Avtomobil iki modifikasiyada - 200 və 400 at gücündə elektrik mühərriki ilə buraxılır. Ən güclü versiya 0-dan 100 kilometr-saat sürəti 4,8 saniyəyə yığa bilir. Elektromobilin maksimal gediş məsafəsi isə 500 kilometrə yaxındır. Avtomobillərin hazırlanması zamanı onların ətraf mühit üçün tam zərərsiz olmasına xüsusi diqqət yetirilib.

Türkiyənin 60 illik xəyalının reallaşması kimi qiymətləndirilən yerli avtomobil “Togg”un T10X modeli üçün sifariş hüququ qazanan 20 min əsas və 20 min ehtiyat qalibin siyahısı da artıq açıqlanıb. Püşkatma nəticəsində T10X modelini almaq hüququ qazanan şəxslərin siyahısı “Togg”un rəsmi internet saytında elan edilib. Bu modeli əvvəlcədən sifariş verən 177 min 467 nəfər arasında 20 min nəfər yerli avtomobil sahibi olub.

# Yüksək texnoloji məhsullar Türkiyə xalqının zəkası və əməyinin nəticəsidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edib.**

Türkiyənin ilk yerli elektromobili “Togg”un istehsalı ilə bağlı təbriklərini çatdıran dövlətimizin başçısı onun Bakıya gətirilməsindən məmnunluğunu bildirdi, bununla bağlı Türkiyə dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Azərbaycan Prezidenti bu tipli avtomobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirdi.

Dünən Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşünü xatırladan Prezident İlham Əliyev qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu dedi, bunun Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəldiyini vurğuladı və “Togg”un istehsalına başlanılmasının da bu baxımdan yaxşı nümunə olduğunu bildirdi.

Dövlətimizin başçısı əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş Türkiyə xalqına təbriklərini çatdırdı.

Mustafa Varank “Togg”un ikinci avtomobilinin Azərbaycanda olmasından Türkiyə Prezidenti və xalqının qürur hissi keçirdiyini bildirdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən sənaye və texnologiya sahələrində inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Yolumuz da, sükanımız da etibarlı əllərdədir!




**Türk ellərinin gözəl adətlərindən biri də şad günlərdə xətri istənilən doğma adama bəxşiş, hədiyyə verməkdir. Bu adətin əsas özəlliyi yaşanan sevinc hisslərini həm də özünə ən yaxın bildiyin dostla paylaşmaq, onu da sevincə şərik etməkdir.**

“Türkiyənin ilk yerli “Togg” elektromobilinin ikincisinin ölkəmizdə olması dostluq və qardaşlıq münasibətlərimizin təzahürüdür”. Bu sözləri Prezident İlham Əliyev Türkiyənin Sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edərkən deyib. Dövlət başçısı qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu qeyd edib. Azərbaycan Prezidenti vurğulayıb ki, bu, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəlib və “Togg”un istehsalına başlanması da bu baxımdan yaxşı nümunədir.

Prezident İlham Əliyev əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş türk xalqına təbriklərini çatdırıb.

* * *

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin ilk yerli elektromobili “Togg”un Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunması ilə bağlı paylaşım edib. R.T.Ərdoğan tvitərdə bunları yazıb:

“Qardaşım İlham Əliyev də Türkiyənin qüruru “Togg”u təhvil alıb. Xeyirli olsun! Allah gözəl günlərdə istifadə etməyi qismət etsin, qardaşım!”.

* * *

Bir millətin iki dövlətinin və iki liderin - qardaşın yolu və hədəfi bir olduğuna görə, “Togg” elektromobilin Qarabağımızın dırnaqsalmaz köhlən atları kimi yalnız və yalnız irəli gedəcəyinə tam əminik. Dəyəri qiymətindən qat-qat çox, hilallı-ulduzlu əkiz bayraqlarımızdakı qırmızı rəngi özündə ehtiva edən Türkiyənin milli elektromobili həm də iki qardaşı yan-yana aparacaq o möhtəşəm ünvanın - Böyük Turanın müjdəçisidir. İndi gördüyümüz kimi, o tarixi məqamda da dünya brendinə çevriləcək türk elektromobilinin sükanı arxasında yüksək idarəetmə bacarığına malik diplomat-sürücülər, iki qardaş Prezident, iki Ali Baş Komandan əyləşəcək.

XXI əsrin danılmaz gerçəklərindən biri də Azərbaycanla Türkiyənin əbədi qardaşlığı, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyev arasındakı sarsılmaz dostluqdur. Son illər bu qardaşlıq telləri, dostluq münasibətləri bütün dünyanın diqqət mərkəzindədir, -desək, yanılmarıq. Artıq qibtə ediləcək səviyyəyə çatmış bu dostluq bizə dost olmayan ölkələrdə belə danışıq mövzusuna çevrilib.

Bəli, Türk dünyasının iki böyük lideri – Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin bu dostluğa sadiqliyinə, onu göz bəbəyi kimi qoruduğuna hamı şahidlik edir. Biz isə bununla həm də qürur duyuruq. Necə ki güvənc yeri saydığımız Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər birimizi qürurlandırır.

* * *

Prezidentlərin 2020-ci il dekabrın 10-da Bakıda bərabər iştirak etdikləri Zəfər paradındakı çıxışlarından seçmələr.

**Prezident İlham Əliyev:**

“Bu gün bizim birliyimiz dünya çapında bir amildir. Türkiyə nə qədər güclü olsa, biz özümüzü o qədər güclü hiss edəcəyik. Türkiyənin uğurları bizi çox sevindirir. Əminəm ki, bundan sonra da bizim qardaşlıq əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək!”

**Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan:**

“Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin “Bir millət, iki dövlət” şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik...”.

* * *

Dostlarımızı sevindirən, düşmənlərimizə göz dağı verən bu səhnələrə bizim kimi, dünya da artıq vərdiş edib. Azərbaycan və Türkiyənin bərabər yüksəlişini gözləri götürməyənlər, bölgəmizdə fitnə-fəsad yaratmağa cəhd edənlərin özləri də yaxşı bilir ki, bu iki qardaş ölkə yüz il bundan əvvəl bir yerdə olub, bu gün bir yerdədir və sabah yenə də bir yerdə olacaq.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

*Ekoaksiyanın gündəliyi*

# Laçın yolu xoş niyyətlərə açıqdır

## *Dünən buradan 122 avtomobil maneəsiz keçib*

**Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, kommunikasiya xətlərinin açılmasına mane olur. Laçın yolundakı aksiyaya qarşı çıxanlar bu öhdəliyin icrasını tələb edirlər. Əlbəttə, silahların daşınmasına dair məlumatlar dəqiqdirsə, deməli, burada Rusiya sülhməramlılarının da rolu var. Bu fikirləri Azərbaycan mediasına müsahibəsində ABŞ Dövlət Departamentinin sabiq əməkdaşı, məşhur politoloq Pol Qobl deyib.**



Laçın–Xankəndi yolunda davam edən aksiya Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, erməni ekoloji cinayətlərinin beynəlxalq müstəvidə ifşası baxımından mühüm əhəmiyyətə malikdir. Bu aksiya göstərdi ki, Azərbaycan xalqı ona məxsus təbii sərvətlərin talan edilməsinə imkan verməyəcək! Xalqımız öz sərvətlərinə sahib çıxmaqda qərarlıdır və aksiyanın fasiləsiz şəkildə davam etdirilməsi, günü-gündən genişləndirilməsi buna nümunədir.

Analitik düşüncə korluğundan əziyyət çəkən Ermənistan qəsdən aksiyanı blokada kimi təqdim edir. Azərbaycan üçtərəfli bəyanatla üzərinə düşən öhdəliklərinə əməl edir. Belə ki, Laçın yolu humanitar məqsədlər üçün açıqdır. Hər gün həmin yoldan onlarca nəqliyyat vasitəsi keçir. Yoldan silah-sursatın, minaların və s. daşınması isə yolverilməzdir. Bu hərbi vasitələrlə dinc vətəndaşlarımızın ölməsini seyr etmək fikrimiz yoxdur.

Dünən Xankəndi-Laçın yolunda 60-dan çox nəqliyyat vasitəsi, o cümlədən Rusiya sülhməramlılarına məxsus dörd avtomobil maneəsiz keçib. Həmin avtomobillərin içərisində Qarabağda yaşayan erməni ailələri də olub.

Sülh gündəliyinin irəli aparılması üçün Azərbaycan hər zaman təşəbbüs göstərib. Sülh müqaviləsinin bütün prinsipləri də qarşı tərəfə təqdim edilib. Lakin yenə də son günlər Ermənistanın manipulyasiya xarakterli davranışları müşahidə olunur, bölgədə revanşist meyillər gözə çarpır.

“Qonşun pisdirsə köç qurtar…” deyiminin Azərbaycan–Ermənistan qonşuluğuna heç bir aidiyyəti yoxdur. Çünki biz bu ərazilərin əzəli və əbədi sakinləriyik. Dünyanın heç bir yerində yurd-yuva salmayan köçəri ermənilər havadarlarının köməyi ilə bizim ərazilərimizdə məskunlaşıblar. Yalvarışlarına acıyaraq, ocağımızın istisinə isinməyə şərait yaratdığımız ermənilər az sonra özlərini bu ərazilərin sahibləri hesab etməyə başlayıblar.

Ekoloqlarımızın, QHT-nin, vətəndaş cəmiyyətinin fəalları inad göstərir, məqsədə çatmaq üçün hər cür çətinliyə tab gətirməyə hazırdırlar. Aksiyaçılar tələb edirlər ki, öz torpaqlarımızda gedən proseslərdən xəbərdar olmalıyıq, sərvətlərimizə sahib çıxmalıyıq. Burada pis nə var? Torpaq sahibləri, öz haqlarını beynəlxalq hüquq səviyyəsində tələb edirlər. Bu, onların həm də konstitusiyon hüququdur. Bu haqqı heç kim onların əlindən ala bilməz, buna hüquqları da çatmır.

Azərbaycan gənci istəmir ki, cinayətkarlar ərazimizi talasın, ekologiyanı, təbii sərvətləri korlasınlar. Ermənilər nə qədər yalan danışsalar belə, dünya ictimaiyyətini çaşdırsalar da, artıq real vəziyyət göz önündədir. Gənc könüllülər dəyişməz şüarları ilə Azərbaycan cəmiyyətinin haqlı narazılığını dilə gətirir, ekoloji terrora son qoyulmasını, faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını tələb edirlər. Aksiya dinc etirazçıların nümayiş etdirdiyi yüksək əhvali-ruhiyyə ilə davam edir.

***Rizvan FİKRƏTOĞLU,***
***“Xalq qəzeti”***

**Azərbaycan Ordusunun martın 25-dəki son əməliyyatları nəticəsində Şuşa rayonunun iki kəndi nəzarətimizə keçib. Bununla bağlı yayılan məlumatda bildirilir ki, bunlar rayonun Allahqulular və Zamanpəyəsi kəndləridir. Həmçinin, əməliyyat nəticəsində bir sıra yüksəkliklər, ətraf ərazilər də Azərbaycan Ordusunun nəzarəti altındadır.**

# Şuşanın bütün kəndlərinə qayıdacağıq!

Şuşa Qarabağın tacı, musiqimizin beşiyi, mədəniyyət paytaxtımız olmaqla yanaşı, Azərbaycan Respublikasında inzibati-ərazi vahididir. Rayon 1930-cu ildə təşkil edilib. Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir. Ərazisi 289 kvadratkilometr, əhalisi 1 yanvar 2016-cı il tarixinə görə 32,8 min nəfərdir. Şuşa rayonu Şuşa şəhərindən, 1 qəsəbə və 37 kənddən ibarətdir. Rayon 8 may 1992-ci ildə Ermənistan





ordusunun bölmələri tərəfindən işğal olunmuşdu. Şəhər Vətən müharibəsinin son günlərində – 2020-ci il noyabrın 8-də işğaldan azad edilib.

***

Allahqulular Şuşa rayonunun Səfixanlar inzibati ərazi dairəsində kənddir. Kənd Azərbaycan Ali Sovetinin 7 fevral 1991-ci il tarixli, 54-XII saylı qərarı ilə Xanalı inzibati ərazi dairəsindən Səfixanlar inzibati ərazi dairəsinin tərkibinə verilib. Allahqulular 1992-ci ilin mayında erməni hərbi birləşmələri tərəfindən işğal edilib.

2007-ci ildə çap olunmuş “Azərbaycan toponimlərinin ensiklopedik lüğəti”nin I cildində Allahqulular kəndinin keçmiş adının Allahquluuşağı olduğu bildirilir. Qeyd olunur ki, XIX əsrin əvvəllərində bu kəndi Qarabağ xanı Mahmudqulu xana mənsub Xəlfəli elatının Allahquluuşağı nəsli salıb. Kənd Xəlfəliçayın sahilində, düzənlikdə yerləşir.

Zamanpəyəsi isə Şuşa rayonunun Xəlfəli inzibati ərazi dairəsində kənddir. Bu kənd də 1992-ci ilin mayında işğal olunub. Kəndin əsasını Xəlfəli tayfasına mənsub ailələr qoyublar. “Azərbaycan toponimlərinin ensiklopedik lüğəti”nin II cildində Zamanpəyəsi kəndi haqqında deyilir ki, bu yaşayış məskəni keçmişdə Zaman adlı şəxsə və ya Zamanlı kəndinə məxsus yaylaq yurdu olması güman edilir.

***

Şuşanın iki kəndinin ordumuzun nəzarəti altına keçməsinin həm siyasi, həm də hərbi nöqteyi-nəzərdən əhəmiyyəti böyükdür. Burada hərbi əhəmiyyət odur ki, Azərbaycan separatçıların nəzarəti altında olan əraziləri tədricən azad edir. Vətən müharibəsi zamanı ərazilərimizin böyük hissəsi azad olunub. Amma, təəssüf ki, hələ də separatçıların nəzarətində ərazilərimiz qalır. Bu ərazilərdə də suverenliyimizin tədricən bərpa olunacağı şübhəsizdir.

Məsələnin siyasi əhəmiyyəti isə erməni separatçılarına və rəsmi İrəvana Azərbaycanın öz ərazilərinə sahib çıxması mesajının göndərilməsidir. Azərbaycan bununla bir qarış da torpağının işğal altında qalmayacağını bəyan edir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, bundan əlavə, Qarabağ erməniləri də Azərbaycan qanunları ilə yaşamağı qəbul etməlidirlər.

Azərbaycanın iki kəndi nəzarətə götürməsi həm Ermənistanın, həm də Qarabağ separatçılarının manevr imkanlarının daralması deməkdir. Bu, Azərbaycanın qarşıya qoyduğu hədəfə nail olmaq istiqamətində növbəti uğurlu addımdır. Bu, həm də hələlik ölkəmizin nəzarətindən kənarda qalan, yolumuzu gözləyən kəndlərimizə dönüşümüzün başlanğıcıdır.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

*Ekspert rəyi*



**Vasif Quliyev, tədqiqatçı-jurnalist, “Şuşa” qəzetinin redaktoru:**

– Allahqulular və Zamanpəyəsi kəndləri əlverişli coğrafi mövqedə yerləşir. Bu kəndlər erməni separatçılarının Xankəndiyə silah-sursat daşıdıqları torpaq yolun üzərində olduğu üçün onların nəzarətə götürülməsinin mühüm əhəmiyyəti var. Ümid edirəm ki, bununla da erməni separatçılarının torpaq yolla gediş-gəlişi tam kəsiləcək. Düzdür, bunlar kiçik kəndlərdir. İki kəndə ümumilikdə 120 nəfər yaşayırdı. Ancaq bir daha qeyd etmək istəyirəm ki, onların strateji nöqteyi-nəzərdən əhəmiyyəti böyükdür.

Bundan əlavə, adları çəkilən kəndlər son dərəcə səfalı, gözəl təbiət mənzərələri olan kəndlərdir. Kəndlər dağlıq, meşəlik ərazini əhatə edir. Orada yaxşı turist bazası yaratmaq olar. Onların nəzarətimizə keçməsi Şuşa rayonunun digər kəndlərində də bayrağımızın ucaldılacağı günün uzaqda olmadığını göstərir. Tezliklə Malıbəyli, Quşçular, Böyük Qaladərəsi, Kiçik Qaladərəsi, Turşsu qəsəbəsi də daxil olmaqla, Şuşanın digər bütün kəndlərinin ordumuzun nəzarətinə keçməsi əsas hədəfimizdir. Ermənilər birdəfəlik anlamalıdırlar ki, biz torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq.

# Azərbaycan bölgədə aparıcı rola malikdir

**İtaliya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəyə yüksəlməsi Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən qəzetimizə verilən məlumata görə, bu sözləri İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Bakıda keçirən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundunda deyib.

Nazir müavini Edmondo Çirielli ölkələrimiz arasında mövcud olan çoxölçülü strateji tərəfdaşlıqdan məmnunluqla danışaraq, münasibətlərimizin hazırkı səviyyəyə yüksəlməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olduğunu bildirib. Azərbaycanın bölgədə mərkəzi rola malik olduğunu, iki ölkə arasında geniş spektrli iqtisadi gündəliyin mövcudluğunu, uzun illər Azərbaycanın İtaliya üçün mühüm enerji təchizatçısı olduğunu, Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan Trans Adriatik qaz boru kəmərinin fəaliyyətə başlamasından sonra Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyindəki rolunun daha da artdığını diqqətə çatdırıb.

***“Xalq qəzeti”***

# Şamil Ayrım: "AK Partiya seçki kampaniyasını musiqisiz, sakit aparacaq"

**"Ədalət və İnkişaf Partiyasının seçki kampaniyası əvvəlki illərdə keçirilən ənənəvi kampaniyalardan fərqli olacaq. Çünki Türkiyədə baş verən güclü zəlzələ ilə əlaqədar ölkəmiz hüzün, kədər içindədir. Hörmətli prezidentimiz Rəcəb Tayyib Ərdoğanın da göstərişi ilə əsrin fəlakəti olan bu zəlzələdə həyatını itirənlərin xatirəsinə ehtiram əlaməti olaraq AK Partiyanın seçki kampaniyası musiqisiz, səs-küysüz və sakit bir şəkildə aparılacaq".**



Bu fikirləri Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Partiya) İstanbul millət vəkili Şamil Ayrım "Xalq qəzeti"nə açıqlamasında bildirdi.

Hazırda Türkiyə Böyük Millət Məclisində (TBMM) 28 dönəm millət vəkilləri siyahısında olmaq üçün öz namizədliyini də irəli sürən Şamil Ayrım dedi ki, prezident və parlament seçkiləri kampaniyasına artıq start verilsə də, AK Partiyanın budəfəki prezident və parlament seçkisi kampaniyasında seçicilərlə daha çox üz-üzə görüş formatına üstünlük verilir: "Prezidentliyə namizədlərin siyahısı martın 31-də dərc olundu və aprelin 1-də Türkiyədə prezidentliyə namizədlərin seçim kampaniyası mərhələsinə başlandı.

Parlament seçkiləri üçün isə AK Partiya aprelin 9-11-də namizədləri müəyyənləşəcək. Aprelin 15-də seçim kampaniyasına başlanır. Mayın 14-də isə prezident və parlament seçkiləri keçiriləcək. Bayraqlı, təntənəli, işıqlı mitinqlərin yerini daha çox üzbəüz görüşlər və ziyarətlər tutacaq. Biz AK Partiya olaraq sahədə və ya qapı-qapı gəzərək insanlarla kampaniya aparmağın daha doğru olduğunu düşünürük".

Təmsil etdiyi partiyanın seçki reytinqinə toxunan millət vəkili ictimai sorğularda AK Partiyanın yüksək mövqedə bərqərar olduğunu və düzgün seçim kampaniyası ilə reytinqlərinin hər zamanki kimi daha da yüksələcəyini diqqətə çatdırıb.

Xatırladaq ki, 2018-ci il iyunun 24-də keçirilən seçkiləri 52,6 faiz səslə Rəcəb Tayyib Ərdoğan qazanmışdı.

***M.SULTANOVA***

**Ankara**

# İslama zidd rejimin terror xronologiyası

## *Yaxud Tehranın törətdiyi amansızlıqlara ötəri baxış*

**İran İslam Respublikası yarandığı gündən dünyanın müxtəlif yerlərində siyasi qətllər həyata keçirib. Bu, Tehranın dövlət siyasətinin tərkib hissəsidir. Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilmiş terror aktının da İran xüsusi xidmət orqanlarının işi olduğunu təsdiqləyən dəlillər var. Bu və ya digər məsələlərlə bağlı "haqqın.az" saytının iranlı politoloq Ural Hatəmi ilə söhbətindəki ayrı-ayrı məqamları oxucuların diqqətinə çatdırırıq.**



Beləliklə, U.Hatəmi bildirib ki, İran bütün dünyada terror fəaliyyətini fəal şəkildə təşkil edir, həyata keçirir və maliyyələşdirir. Bunu çoxsaylı araşdırma, məhkəmə qərarı və digər sənədlər də təsdiqləyir. Fars rejimi iki istiqamətdə terror siyasəti aparır. Birincisi, rejimə qarşı çıxan İran müxalifətçilərinə, ikincisi isə digər ölkələrin vətəndaşlarına və qurumlarına qarşı. Onun sözlərinə görə, ölkə xaricində siyasi opponentlərin fiziki məhvi təcrübəsi hələ ötən əsrin 80-ci illərinin sonlarından başlanıb və bu günə qədər də davam etməkdədir.

Politoloq ilk olaraq İran şahı Rza Pəhləvinin bacısı oğlu, keçmiş donanma kapitanı Şəhriyar Şəfiqin öldürülməsinə diqqət çəkib. O, Parisdəki evinin həyətində başından iki güllə vurularaq qətlə yetirilib. Daha sonra monarxiya İranının son baş naziri Şapur Bəxtiyar Parisdə hotel otağında boğazı kəsilmiş halda tapılıb. Bir neçə ay sonra müxalif siyasətçi, professor Əbdülrəhman Brumand evinin liftinin qarşısında bıçaqlanaraq öldürülüb. Daha sonra isə Böyük Britaniyada, Almaniyada, Avstriyada, Türkiyədə, İordaniyada, Səudiyyə Ərəbistanında, habelə Tailandda fars–molla rejiminin əleyhdarlarına qarşı siyasi sui-qəsd dalğası yayılıb.

Bundan başqa, İran kəşfiyyatının agentləri və ya muzdlu qatilləri siyasi xadim, aktyor Fereydun Fərroxzadı, keçmiş general Qulaməli Oveisi, müxalifət fəallarından Efat Qazi və Əbdülrəhman Qasemləni güllələyiblər. İnqilabdan əvvəl İranın Vaşinqtondakı səfirliyində mətbuat attaşesi işləmiş tanınmış jurnalist Əli Əkbər Təbatəbəy isə ABŞ-da öldürülüb. 1986-cı ildə İstanbulda İran agenturasının üzvləri keçmiş baş nazir Şapur Bəxtiyarın yaratdığı İran Müqavimət Hərəkatının lideri Əziz Moradini iki güllə ilə qətlə yetiriblər.

Politoloq Hatəmi tanınmış türk jurnalisti Uqor Momjinin qətlində də İran xüsusi xidmət orqanlarının əlinin olduğunu bildirib. Onun sözlərinə görə, Momji Türkiyədə islamçı terror qruplarının fəaliyyəti ilə bağlı jurnalist araşdırmaları apardığı üçün aradan götürülüb.

İran siyasi rəhbərliyinin qurbanlarının siyahısını davam etdirən Hatəmi 1996-cı ildə Fransada güllələnərək öldürülən hüquq müdafiəçisi və aylıq "Piam Azadeqan" jurnalının redaktoru Reza Məzlumyanın adını çəkib. İranlı politoloqun fikrincə, ən səs-küylü terror hücumu 1992-ci il sentyabrın 17-də Berlinin Mykanos restoranında törədilib. Burada SEPAH agentləri və "Hizbullah"dan olan livanlılar dörd nəfəri öldürüb, iki iranlı müxalif kürdü yaralayıblar.

Hatəmi iddia edir ki, İranda siyasi qətllərlə bağlı qərarı 20-25 nəfərdən çox olmayan seçilmiş din xadimlərinin dar çevrəsi verir. "Bu insanlar təbii ki, şəriətə istinad edərək fətva verirlər", Politoloqun bildirdiyinə görə, məsələn, Ayətullah Xomeyni özü britaniyalı yazıçı Salman Rüşdinin öldürülməsi ilə bağlı fitva verib. Azərbaycanlı jurnalist və yazıçı Rafiq Tağının qətli ilə bağlı fitvanı isə aşağı rütbəli din xadimi Ayətullah Lənkərani verib. Belə qətllərin fitvası o deməkdir ki, özünü şiə hesab edən hər bir şəxs, hansı ölkədə yaşamasından asılı olmayaraq, nəzərdə tutulan "fəaliyyəti" yerinə yetirməyə, hədəfə alınmış şəxsi öldürməyə borcludur. Yəni, fitva İslamın bu cərəyanının bütün tərəfdarları üçün müqəddəs dini vəzifəyə çevrilir. İran hakimiyyəti təkcə iranlılara deyil, terror aktını həyata keçirmək üçün ayətullahların iradəsinə fanatik şəkildə bağlı olan digər millətlərin və xalqların nümayəndələrinə də "xeyir-dua" verə bilər. Bunun müqabilində şiə din xadimləri onları hər zaman mükafatlandırmağa və sığınacaq verməyə hazırdırlar.

Hatəmi, eyni zamanda, bildirib ki, SEPAH rəhbərliyi və İranın Kəşfiyyat və Təhlükəsizlik Nazirliyi (MİS) müstəqil şəkildə öz qərarlarını qəbul edə və xaricdə terror aktları həyata keçirə bilərlər. İranlı politoloqun sözlərinə görə, bilavasitə SEPAH-a gəlincə, bu strukturun İslam Respublikası hüdudlarından kənarda sui-qəsdlər və hədə-qorxu aktları həyata keçirən xüsusi Qüds bölməsi var.

Ümumən, adları çəkilən hər iki qurum dünyanın müxtəlif bölgələrində terror qruplarının təşkili və idarə olunması ilə məşğuldur. Rejim terror aktında iştirakını gizlətmək istədiyi hallarda vasitəçilərdən – Hizbullah, Fatmayun, Rota əl-Əştər, Kətaib Seyid əl-Şühəda və başqa iranpərəst təşkilatların xidmətlərindən "yararlanır". Maraqlıdır ki, bir qayda olaraq, bütün qətllər hüquq-mühafizə orqanları tərəfindən müəyyənləşdirilib və onları törədənlərin əksəriyyəti həbs edilib.

Ural Hatəmi, həmçinin hesab edir ki, uğurlu terror aktlarının sayının azalması İran terrorçularının çağırışlarına cavab verən Qərb təhlükəsizlik xidmətlərinin peşəkar fəaliyyəti ilə bağlıdır. 2016-cı ildən 2018-ci ilə qədər Parisdə iranlı müxaliflərin qətlini planlaşdıran terror planı üzə çıxarılıb. Fransanın paytaxtında siyasi aksiya zamanı İran agentlərinin partlayış təşkil etmək cəhdinin qarşısı alınıb. Türkiyədə İsrail obyektlərinə hücum planlaşdıran 4 SEPAH agenti həbs edilib, Keniyada iranpərəst qrupun İsrailin Nayrobidəki səfirliyinə hücum cəhdinin, eləcə də Qərb ölkələrində bir sıra obyektlərdə partlayışlar törətmələrinin qarşısı alınıb. Digər Afrika ölkəsi Nigeriyada ABŞ səfirliyinə qarşı terror aktı hazırlayan 3 iranlı həbs edilib. ABŞ-da 2018-ci ildə Amerikadakı İsrail hədəflərinə hücumlar, həmçinin, Səudiyyə Ərəbistanının Vaşinqtondakı səfirinə və tanınmış müxalif İran radiostansiyasının təmsilçilərinə qarşı sui-qəsdlər planlaşdıran agentlər şəbəkəsi üzə çıxarılıb və zərərsizləşdirilib.

Politoloq Hatəmi açıqlamasında 2012-ci ildə Yeni Dehlidə İran agentlərinin İsrail diplomatlarına qarşı terror aktı həyata keçirdiklərini, nəticədə bir İsrail və üç Hindistan vətəndaşının yaralandığını vurğulayıb. 2016-cı ilin fevralında isə Filippin hakimiyyəti İran kəşfiyyat orqanlarının Səudiyyə Ərəbistanına məxsus mülki təyyarəni qaçırmaq planını üzə çıxarıb. 2017-ci ilin oktyabrında İstanbulda İran əleyhinə təbliğat yaydığına görə, Tehran Məhkəməsi tərəfindən qiyabi olaraq 6 il müddətinə azadlıqdan məhrum edilmiş GEM televiziya şirkətinin sahibi və direktoru Səid Kərimiana qarşı 27 güllə atılıb. Mühacirətdə olan İran müxalifəti Milli Müqavimət Şurası bəyanatında Kərimyanın ayətullah Əli Xameneinin şəxsi göstərişi ilə İnqilab Keşikçiləri tərəfindən öldürüldüyünə inandığını bildirib. 2017-ci ilin mayında Türkiyə mediası Kərimyanın qətlində təqsirləndirilən iki nəfərin İrana gedərkən, saxta pasportla Serbiyada həbs edildiyini yazıb. Ümumilikdə, ABŞ Dövlət Departamentinin məlumatına görə, İran İslam Respublikası yarandığı gündən indiyədək 360-dan çox xarici vətəndaşı qətlə yetirib.

Ural Hatəminin sözlərinə görə, İran iqtisadiyyatının nəhəng böhranı, milli valyutanın dəyərdən düşməsi, qiymət artımı, bəzi mallarda bahalaşmanın 300 faizə çatmasına baxmayaraq, fars molla rejimi qətlləri və adam oğurluğunu səxavətlə maliyyələşdirməyə davam edir. Politoloq qeyd edib ki, hakimiyyət hər il təkcə Qüds korpusuna 7 milyard dollara qədər vəsait ayırır. Bu isə o deməkdir ki, teokratiyanı dünyaya yaymaq ideyaları ilə silahlanmış rejim mövcud olduqca, həm İranın özündə, həm də onun hüdudlarından kənarda qətllər və adam oğurluqları davam edəcəkdir.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# İrəvanda ara qarışıb, məzhəb itib

**Ermənistanda daxili gərginlik postmüharibə dövrünün pik həddinə çatmaqdadır. İctimai-siyasi sferanın bütün sahələrində özünü göstərən qarşıdurma artıq parlament və hökumət səviyyəsinə yüksəlib. Görünən odur ki, Hayastan dövlətinin üzləşdiyi böhran cəmiyyətlə yanaşı, hökuməti də cəbhələrə bölməkdə, qütbləşdirməkdədir. Son günlər reallaşan həbs və istefaların fonunda parlament, sözün həqiqi mənasında, qaydasız döyüş meydanına çevrilib...**



## Xalqın gözünə kül üfürən hakimiyyət

Mövcud gərginlik xalq-hakimiyyət nümayəndələri arasında açıq qarşıdurmalarla müşayiət olunur. Nümunə kimi aprelin 2-də parlamentinin spikeri Alen Simonyanın İrəvanın mərkəzində sakinlərin ciddi ittihamları ilə üzləşməsini göstərmək olar. Spikerin onu "satqın" adlandıran vətəndaşa cavabı çox əcaib formada olub. Parlamentdə tez-tez siyasi əxlaqdan, şəxsi nümunədən dəm vuran spiker onu tənqid edən vətəndaşın gözünə tüpürüb. Bu barədə "Şərəf duyuram" fraksiyasının üzvü Hayk Mamicanyan sosial şəbəkədəki hesabında paylaşıb.

O, bildirir ki, parlamentin sədri tərəfindən təhqir olunan vətəndaş Karen Mkrtçyandır. Hayk Mamicanyan, həmçinin vətəndaşın spiker tərəfindən ağır söyüşlərə "qonaq edildiyini" də yazıb. Spikerin göstərişi ilə Karen Mkrtçyan polis tərəfindən həbs olunub.

Bu olay Ermənistan cəmiyyətində yaşanan gərginliyin real mənzərəsini əks etdirməklə yanaşı, hakimiyyətin başında xalqın gözünə tüpürən, onu təhqir edən adamların olduğundan xəbər verir. İki gün bundan əvvəl isə baş nazir Nikol Paşinyanın oğlunun döyülməsi ilə bağlı spiker Alen Simonyanın verdiyi açıqlamanın özü də Ermənistanda xalqla hakimiyyət arasında nifrət və qarşıdurmanın olmasından xəbər verir. Qeyd edək ki, Simonyanın bu açıqlamasından az sonra həbs məlumatı İrəvan polisi tərəfindən təkzib olunub.

## Parlament – qaydasız döyüş meydanı

Ermənistan cəmiyyətini bürüyən gərginlik parlamentə də sirayət etməkdə, fraksiyalar arasındakı qarşıdurmanı daha da gücləndirməkdədir. Martın 31-də parlamentdəki "Hayastan" fraksiyasının deputatı Mher Saakyanla "Vətəndaş müqaviləsi" partiyasının deputatı Vladimir Vardanyan arasında baş verən dava bu gərginliyin bariz nümunəsi olub. Həmin davada Mher Saakyan həmkarı Vladimir Vardanyana xəsarət yetirdiyinə görə hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Parlamentdə daha bir "qaydasız döyüş" mart 15-də reallaşıb. Ermənistan Milli Assambleyasında parlamentin iqtisadi məsələlər üzrə daimi komissiyasının iclası zamanı "Vətəndaş müqaviləsi" partiyasından deputat Sisak Qabrielyan ölkədən Türkiyəyə ixrac edilən xam qızılın həcmindən narahatlığını bildirib. Bunun ardınca Sisak Qabrielyan gözlənilmədən müxalifət blokunun deputatı Tadevos Avetisyana hücum edib. Bir-birinin ünvanına ağır ittihamlar səsləndirən tərəfləri digər deputatlar güclə ayırıblar.

Bəli, bu gün Ermənistan parlamenti qaydasız döyüş meydanını xatırladır və orada qoldangüclü deputatların sözü arqument və faktlarla danışan deputatların sözündən daha doğru hesab edilir.

Arayış olaraq qeyd edək ki, Ermənistan parlamenti 107 deputatdan ibarətdir. Hakim "Vətəndaş müqaviləsi" partiyası parlamentdə 71 deputatla təmsil olunur. Müxalifətdəki "Hayastan" fraksiyasının isə parlamentdə 29 yeri var və onun rəhbəri sabiq müdafiə naziri Seyran Ohanyandır. "Şərəf duyuram" farksiyası da Ermənistan parlamentində müxalif düşərgə sayılır. Bu fraksiyaya milli təhlükəsizlik xidmətinin keçmiş direktoru Artur Vanesyan rəhbərlik edir.

Paşinyanın Ermənistan parlamentində əsas dayağı hakim "Vətəndaş müqaviləsi"dir. Paşinyan məhz bu partiyanın parlamentdəki nümayəndələri vasitəsilə müxalifətin təzyiqlərini neytrallaşdırmağa, özünü çoxsaylı siyasi hücumlardan qorumağa çalışır.

Ermənistanın baş naziri "Vətəndaş müqaviləsi" partiyasını müxalifətin qanunvericilik sahəsində irəli sürdüyü "arzuedilməz təkliflər"lə mübarizədə də əsas silah hesab edir. Nümunə üçün qeyd edək ki, cari ilin mart tarixində məhz "Vətəndaş müqaviləsi" partiyasınının bitərəf qalması səbəbindən müxalifətin Qarabağla bağlı bəyanat layihəsi parlamentdə dəstəklənmədi.

Onu da bildirək ki, Ermənistan parlamentindəki müxalif fraksiyalar bu ölkənin keçmiş prezidentləri olan Robert Koçaryan və Serj Sarkisyan tərəfindən həvəslə dəstəklənməkdədir.

## Spiker deputatlara qarşı

Ermənistan parlamentində fraksiyalar arasında qarşıdurma bir yana, spiker və sıravi deputatlar arasında söz davası və qarşıdurma adi hal alıb. Bu qarşıdurma özünü daxili məsələlər kimi, xarici məsələlərə münasibətdə də aşkar hiss edilməkdədir. Ermənistanın Rusiya əleyhinə Roma Statutuna qoşulması cəmiyyətdə olduğu kimi, parlamentdə də qarşılıqlı ittiham və təhqirlərə səbəb olub. Spiker və deputatlar arasında bu məsələdə ciddi fikir ayrılığı yaranıb. Bir sıra deputatları, o cümlədən "Vətəndaş müqaviləsi" partiyasının üzvü Qaqik Melkonyan Putinin Ermənistana səfəri zamanı onun həbs ediləcəyini bildirsə də, parlamentin spikeri Alen Simonyan bu ehtimalı "absurd" adlandırıb. Putinin həbsi ehtimalının hakim "Vətəndaş müqaviləsi" partiyasının üzvü tərəfindən səsləndirilməsi rəsmi İrəvanın Moskva ilə bağlı siyasətinin hakim partiyanın daxilində belə dəstəklənmədiyini ortaya qoyur.

İqtidar fraksiyasından digər deputat Qurgen Arsenyan isə rus qoşunlarının Ermənistanda "əbədiyyətə qədər" qalmasına etiraz edib və buna lüzum görmədiyini vurğulayıb.

Ermənistan mövcud siyasi sistemindəki qeyri-sağlam mühit parlamentin üzvləri ilə hüquq-mühafizə orqanlarının rəhbərliyi arasındakı münasibətlərdə də ciddi gərginliyin yaşanması ilə müşayiət edilir.

Elə spiker Alen Simonyanın 2018-ci ildə baş vermiş bir olaya görə cari ilin 16 yanvar tarixində İrəvan Məhkəməsində dindirilməsi bunun əyani sübutudur. Məhkəmədə Simonyan Ermənstan DİN rəisinin sabiq müavini Levon Yeranosyanın cinayət işi üzrə zərərçəkən qismində dindirilib və o, 5 il əvvəl etiraz aksiyası zamanı polis əməkdaşları tərəfindən döyüldüyünü iddia edib. Simonyanın bu iddiası parlament və hökumətdəki qarşıdurma ilə yanaşı, sərbəst aksiyanın güc strukturu tərəfindən qəddarlıqla yatırılması məsələsini də yenidən gündəmə gətirib.

## Məhkumlar ölkəsi

Ermənistanda hakimiyyətdaxili ziddiyyətlər və onun fəsadları genişlənməkdə olan həbslərin timsalında da özünü göstərməkdədir. Bir müddət öncə İrəvanın vitse-meri Gevorq Simonyanın həbsi, sabiq səhiyyə naziri, hakim partiyadan olan deputat Arsen Torosyanın həbsinin gündəmə gəlməsi bu dalğanın bütün şiddəti ilə davam etdiyindən xəbər verir.

Hökumət nümayəndələri ilə yanaşı, parlament üzvlərinin də həbsi ictimai gündəmi məşğul edən mövzulardandır. Aydındır ki, parlamentarilərin həbsinə hazırlıq onların toxunulmazlığının ləğvi ilə başlayır. Yeri gəlmişkən, Ermənistan parlamenti gizli səsvermə nəticəsində "Ermənistan" fraksiyasının nümayəndəsi, "İzmirlyan" tibb mərkəzinin keçmiş direktoru Armen Çarçyanı deputat toxunulmazlığından məhrum edib. Çarçyan Ermənistan baş prokurorluğu tərəfindən rüşvət almaqda və seçicilərə təzyiq göstərməkdə ittiham olunur.

Müxalif "Ermənistan" blokunun rəhbəri, sabiq müdafiə naziri Seyran Ohanyanın da deputat toxunulmazlığı bu ilin fevralında ləğv edilib. Buna səbəb Seyran Ohanyanın rüşvət və korrupsiyada ittiham olunmasıdır. Spiker Alen Simonyan Seyran Ohanyanla yanaşı, "Hayastan" müxalifət fraksiyasının 3 deputatının da həbs olunacağını istisna etməyib.

Ermənistan iki ildən çoxdur ki, həbslər və istefalarla çalxalanmaqdadır. Yəqin bu gedişlə yaxın bir neçə il ərzində Hayastanda məhkumluq həyatı yaşamayan siyasi fiqur qalmayacaq.

***Seymur ƏLİYEV,***
***"Xalq qəzeti"***

ZƏRİFƏ ƏLİYEVA – 100

# Ürək odu – göz işığı

## Unudulmaz müəllimim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə…



**ANA! Öz tutumuyla bu varlıqla müqayisə olunası iki ruhi-müqəddəs tanıyıram: Çörək və Qurani-Kərim. Bu sözün – varlığın bütün canlılarda gücü, anlamı eynidir. Bala-övlad yolunda, dünyaya gətirdiyinin yolunda həyatından belə keçmək qüdrəti. Mütləq məhəbbətin bir nümunəsi. Gəlin etiraf edək ki, bu qan yaddaşından gələn məhəbbətin də dərəcələri olur, belə deyək ki, daha böyükləri, nəhəngləri olur. Və bu nəhəng hisslər, sevgilər zərif analarımızın qəlbində olur. Analar övladlarını laylalarla, bayatılarla oxşayırlar. Övladlar analarını "Ana" Cəfər Cabbarlı şeiriylə...**

Zərifə xanım alim idi. Adı böyük hərflərlə yazılan alim. Zamanı qabaqlayan. Onun bir neçə istiqamətdə apardığı işlər illər keçəndən sonra daha da aktuallaşır, gərəkli olur, qiyməti daha da artır. Məsələn, gözün peşə xəstəlikləri ilə əlaqədar Sovet İttifaqında yaradılan ilk sanballı elmi laboratoriya. Onun rəhbərlik etdiyi, böyük ideyaları reallaşdıran bu kollektivin gördüyü işlərin elmi nəticələri bütün dünyada qəbul olunurdu. Əslində, akademik Zərifə xanım Əliyeva dünyada bu elmi istiqamətin pioneridir. Heç də təsadüfi deyil ki, o, SSRİ Tibb Elmləri Akademiyasının yüksək Averbax Mükafatına layiq görülmüşdü. Akademik Zərifə xanım Əliyevanın məşğul olduğu elmi istiqamətlərdən biri də iridodiaqnostikaya həsr olunan ilk elmi monoqrafiyanın aparıcı müəlliflərindən olması idi.

Zərifə xanım bu günü uzun illər əvvəl görüb, tibbi deontologiyaya aid qiymətli elmi-fəlsəfi əsərlər yazıb mərkəzi mətbuatda çap elətdirmişdi.

O, Moskvada nəşr olunan o zamankı SSRİ-nin ən nüfuzlu oftalmoloji elmi dərgisi olan "Vestnik oftalmologii" jurnalının redaksiya heyyətinin üzvü idi. O jurnalın baş redaktoru Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun direktoru, akademik M.M.Krasnov idi. Həmin illərdə mən bu elm ocağında aspiranturada, sonra isə doktoranturada təhsil alırdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, ya da jurnalın redaksiya heyətinin yığıncaqlarına gələndə görüşərdik. Bu qısa görüşlərdə, o, həmişə çox səmimi olardı, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əliyeviç də sənin boyartımını izləyir, uğurların haqqında bizim evimizdə söhbətlər olur. Mən bir az utanaraq ona və Heydər Əlirza oğluna təşəkkür etdim. Bir müddət sonra Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsində Ümumittifaq Lenin Komsomolu Mükafatına layiq görüləndə Heydər Əlirza oğlu məni Moskvadan Bakıya telefonla şəxsən təbrik elədi.

Zərifə xanım haqqında bir Ana kimi danışanda öz müşahidələrimdən başqa, xatirəsi həmişə mənə əziz olan iki gözəl insanın – müəllimlərimin sözləri yada düşür. Professor Zəhra xanım Quliyeva və dosent Ləzifə xanım Əliyevanın (Ləzifə xanım Zərifə xanımın böyük bacısı idi). Onlar danışırdılar ki, Zərifə xanım övladlarına fanatik məhəbbətli bir Ana idi. İşdə müxtəlif otaqlardakı telefonlardan (çox nəzərə çarpmasın deyə) dəfələrlə zəng edib evdə qoyub gəldiyi ciyərparalarını soruşardı. Və bu telefon danışıqlarından yalnız birini dinləyən adam heç vaxt onu unutmaz, bir ananın övladlarına olan məhəbbətinin ifadəsini ömrü boyu özüylə gəzdirərdi...

Onun həyat yoldaşı – o zamanlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyevə olan münasibətindən bir anın şahidi olmuşdum: Ləzifə xanımgildə balaca nəvəsi Eminin ad günündə (anam İldız xanımla mən də orada idim) dünənki televiziya ilə verilən iclasda Heydər Əlirza oğlunun böyük çıxışından söhbət düşəndə Zərifə xanımın gözlərini, üzünün ifadəsini heç zaman unutmaram. Bircə onu dedi ki, mən nəfəsimi dərmədən bütün çıxışı dinlədim, heyran olmuşdum.

Zərifə xanım yeri gələndə çox incə yumorla danışardı. Gülarə xanım da (Zərifə xanımın bacısı) doğmaları, çox yaxınları ilə şux zarafatlar edərdi. O məclisdə Ləzifə xanım bir balaca soyuqlamışdı, Gülarə xanım bunu görcək gülə-gülə dedi ki, Ləzi bacı ( o, Ləzifə xanımı mehribancasına belə çağırardı) eybi yoxdu, keçib gedəcək, təki xəstələnək, ancaq ölməyək. Zərifə xanımın zərif, olduqca yerində olan yumorundan Zəhra xanım, Ləzifə xanım, kafedramızın onunla həmyaş olan dosentləri Səkinə xanım, Rəfiqə xanım saatlarla gözəl xatirələr danışardılar. Səkinə xanım və Rəfiqə xanım indi də danışırlar. İncə, zərif, yerinə düşən yumor, yüksək zövq sahiblərinə, geniş dünyagörüşünə əslzadələrə məxsus əlamətdir və çox təəssüf ki, bu, dünyada bütün yaranmışlara nəsib olan xoşbəxtlik deyil. Bu səadət Zərifə xanımın saysız bəzəklərindən, tale vergilərindən biri idi.

Allah-təala onu valideynlərindən də yarıtmışdı. Dünyanın ən dəyərli kişilərindən biri, xeyirxahlarından biri, alimlərindən biri, siyasi xadimlərindən biri, ləyaqət sahiblərindən, seçilmişlərindən, tanınmışlarından biri, varlığıyla Azərbaycanın tarixi bir mərhələsi olan Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi Zərifə xanım. Anası Leyli xanım xanımlar xanımı, ağlı-zəkası bir dünyanı idarə edəcək bir güc, nur sahibi idi. Leyli xanımın da söhbətləri heç vaxt unudulmayacaq gözəllikdə idi. O söhbətlərdən bir epizodu xatırladım. Leyli xanım danışırdı ki, həyat yoldaşı Əziz müəllim uzun müddət Vətəndən uzaqda işləyirmiş. O vaxt uşaqların böyüyü Ləzifənin (Leyli xanımın dilindən deyirəm) əlindən tutub Mircəfərin (Mircəfər Bağırov) qəbuluna getdim, xahiş elədim ki, Əzizi (Əziz Əliyev) Azərbaycana qaytarsın, nə iş verir, versin, lap adi iş olsun. O da qayıtdı ki: Leyli xanım, Əziz Azərbaycana gəlsə o heç bir işdə işləyə bilməz, ona layiq olan yer ancaq mənim yerimdir, onu da mən tutmuşam. Bunu deyib bir xeyli susdu. Mən də gözləmədiyim cavabdan sonra heç bilmədim nə deyəm, sağollaşıb gəldim evimizə.



Zərifə xanımın böyük qardaşı, professor Tamerlan Əziz oğlu Əliyev Tibb Universitetində terapiya kafedrasının müdiri idi. Ürəyimdə bir kitablıq söz, məhəbbət var onun ünvanına. İnşallah, ömür vəfa eləsə yazacağam. Ancaq bircə onu deyim ki, bu yaşıma qədər doğmalarım, dostlarım, müəllimlərim qarışıq lap yaxından tanıdığım əzizlərimin bir siyahısı var ürəyimdə. Mən Allahımı heç vaxt unutmaram, ancaq o adamların Tanrı dərgahındakı hörmətlərinə güvənib dara düşəndə yalnız ürəyimdə pıçıltıyla Allahdan sonra onları köməyimə çağırıram. O kiçik siyahıda Hüseyn babam var. Onlardan biri də Tamerlan müəllimdir. Böyük, çox böyük ləyaqət sahibi, nur daşıyıcısı, professor Tamerlan Əziz oğlu Əliyev! Mənim üçün həmişə canlı olan müqəddəs insan!

Bu böyük ailənin, nəsil-şəcərənin Zərifə xanımla bağlı hər bir üzvü Dilbər xanım, akademik Cəmil Əliyev haqqında saatlarla danışmaq imkanım var. Ancaq bu xatirə yazının qəbul olunmuş reqlamentinə uyğunlaşmalıyam.

Bir ailənin iki üzvü – olduqca böyük şəxsiyyətlərdən dünyaya gələn övladların genetik varisliyi valideynlərin və övladların böyük xoşbəxtliyidir.

Sevil xanımın qeyri-adi çoxşaxəli istedadının, savadının, təvazökarlığının, mədəniyyətinin bu səviyyədə olmasında atasının və Zərifə xanımın müstəsna rolu olmuşdur. Uzun illər bundan əvvəl Zərifə xanımla anamın arasında olan bir söhbəti heç cürə unuda bilmirəm. O söhbət Ləzifə xanımgilin evində Ləzifə xanım, qızı Svetlana xanım və Gülarə xanımın yanında olmuşdu. Zərifə xanım deyirdi ki, Sevil (o vaxtlar Sevilin 16-17 yaşı olardı) bir tikə çörəyi (arasında pendir) qalanda belə atmır, tullamır, büküb qoyur ki, sonra yeyərəm. Atası ölkənin birinci yox, lap yüzüncü adamı olan qız ya oğlan uşağından bu cür nümunə, hətta deyərdim ki, müqəddəs davranış nadir hadisə idi, lap elə indinin özündə də heyrət və qibtə doğurardı...

Heydər Əlirza oğlu sonralar illər keçəndən sonra mənfur Qorbaçovun həsədinə tuş gəlib Bakıya dönəndən sonra, (yerli hakimiyyətlə də müxalif mövqedə olanda) yazıçıların Filarmoniyada keçirilən qurultayında təsadüfən mənə yaxın oturacaqda əyləşdi. Xəlil Rza ilə birgə idilər. Görüşdük. Fasilədə həmin İdrak ətri (esselər) 77 zəngə görə bir daha təşəkkür etdim. Və bir də dedim ki, Siz Moskvadan məni təbrik etdiniz, ancaq burada Kamran Bağırov heç elə bil ki, yoxuymuş. Gülümsündü: "Fikir vermə, hamı bir olmaz ki", – dedi.

Akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji, ictimai fəaliyyəti haqqında yazılanlardan fərqli qısaca öz müşahidələrimi qələmə aldım. O, bir övlad kimi, bir evin, bir kişinin xanımı kimi, bir ana kimi, alim, müəllim, vətəndaş kimi, həmişə ucalardan ucadaydı. Elmi konfranslardan sonrakı toplantılarda, ya bayramlarda, ad günlərində əksər hallarda unudulmaz Gülarə xanım da iştirak edərdi, həmişə birinci mahnı sifarişi "Anamın anasısan, Azərbaycan" olardı. "Ana" və "Azərbaycan" sözlərini heç kim onun kimi tələffüz elə bilməzdi.

44 günlük müharibəmizin cahanşümül Qələbə ilə şərəflənən günlərində onun da ruhu şad oldu!

Akademik Zərifə xanım Əliyeva prezident xanımı, prezidentin Anasıdır. Bu, onun taleyi idi. Böyük, olduqca böyük həssaslıqla duymaq, görmək, heyran olmaq, zəhməti sevmək, insanları, Vətəni sevmək onun tükənməz istedadı idi.

Böyük sevgidən yaranıb, böyük məhəbbətlə insanları, Vətəni sevənlər əbədi yaşayanlardır...

***Paşa QƏLBİNUR,***
***ATU-nun oftalmologiya kafedrasının müdiri, professor***

# "Heydər Əliyev və şanlı Zəfər tariximiz"

**Respublika Baş Prokurorluğu "2023-cü il Heydər Əliyev İli" ilə bağlı silsilə tədbirlərin növbəti konfransını Zaqatalada təşkil edib. "Heydər Əliyev və şanlı Zəfər tariximiz" mövzusunda konfransın iştirakçıları əvvəlcə Heydər Əliyev mərkəzində ulu öndərin həyat və fəaliyyətini və zəngin dövlətçilik irsini əks etdirən materiallarla tanış olublar.**




Konfransda Baş Prokurorluğun idarə rəisi Erkin Əlixanov Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunmuş Zəfərin qazanılmasında ulu öndərin yaratdığı tarixi əsaslardan söz açıb, bu Qələbənin Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının böyük təntənəsi olduğunu qeyd edib. Müstəqil dövlətimizin banisinin rəhbərliyi ilə aparılmış hüquqi islahatlar barədə danışan natiq daha sonra Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğulayıb.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə tədbirin Zaqatala şəhərində təşkilindən məmnunluğunu ifadə edib. Rayon prokuroru Rasim Musayev, Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Anar Eyvazov, Yeni Azərbaycan Partiyasının rayon təşkilatının sədri Habil Qurbanov və digər çıxış edənlər böyük siyasətçi və nadir dövlət xadimi Heydər Əliyevin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış ediblər.

Konfrans çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün təşkil edilmiş press-turun iştirakçıları Zaqatala Rayon Prokurorluğunun binasında əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olublar, qarşılıqlı əlaqə mövzusunda işgüzar müzakirə aparıblar.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Azərbaycandan Ukraynaya yeni humanitar yardım

*Akademik Zərifə Əliyeva adına məktəbə generator göndərilib*

**Azərbaycan dövləti İrpen şəhərində görkəmli elm xadimi, oftalmoloq-alim Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəbə daha bir töhfə verib.**



Elektrik enerjisi probleminin həlli məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti orta məktəbi generatorla təmin edib. Məktəbin direktoru Valentina Antonenko orta məktəbə daim dəstək göstərən Azərbaycan dövlətinə, xüsusilə Prezident İlham Əliyevə təşəkkürünü bildirib: "Həmişə olduğu kimi, müharibə zamanı da Azərbaycan dövlətindən səmimi dostluq münasibəti görməkdəyik".

Qeyd edək ki, bundan öncə Prezident İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti Rusiy–Ukrayna müharibəsi zamanı İrpen şəhərində ciddi ziyan dəyən orta məktəbin təmirini üzərinə götürərək, müvafiq işləri yeni tədris ilinə kimi başa çatdırıb.

***"Xalq qəzeti"***

# Əsl vətəndaş, xeyirxah insan, görkəmli alim

**"Tanınmış oftalmoloq, akademik Zərifə xanım Əliyeva ölkəmizdə bu sahədə elmi kadrların formalaşması istiqamətində böyük işlər görüb, elmin özünə çox yeniliklər gətirib. Hər bir ölkənin inkişafı elmin inkişafından asılıdır". Bu fikirləri Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru Rauf Bəylərov akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş konfransda çıxışı zamanı bildirib.**






Əczaçılıq fakültəsi üzrə TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova bildirib ki, Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə Əliyeva təbabətdə öz dəst-xətti ilə seçilmişdir. O, həm də əsl vətəndaş, xeyirxah insan kimi yaddaşlara həkk olunmuşdur.

Tələbələrin konfransa hazırlıq prosesini əks etdirən videoçarxın nümayişindən sonra Milli Oftalmologiya Mərkəzinin elmi təşkilatı, tədris və metodik bölməsinin müdiri Yazgül Abdıyeva akademik Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafındakı müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Zərifə xanım Azərbaycanda geniş yayılmış traxomanın müalicəsi, peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsi, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox tədqiqatların müəllifidir.

Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli akademik Zərifə Əliyevanın məşhur həkim olması ilə yanaşı, həm də qayğıkeş insan kimi yaddaşlarda qaldığını qeyd edib: "Zərifə xanım həyatda iz qoyub getməyi bacaran insanlardandır. Zərifə xanım valideynlərinə layiqli bir övlad, sədaqətli ömür-gün yoldaşı və qayğıkeş ana idi. TEC konfransının belə bir şəxsiyyətin 100 illiyinə həsr edilməsi bizim üçün böyük bayramdır".

ATU-nun TEC rəhbəri, dosent Müşfiq Həsənov da böyük ziyalı alim, oftalmoloq Zərifə xanım Əliyevanın 100 illiyinə həsr olunduğu üçün bu tədbirin öneminin böyüklüyünü qeyd edib. Deyib ki, məşhur alim, tanınmış həkim və istedadlı insan Zərifə Əliyevanın apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycanda təkcə oftalmologiya yox, ümumiyyətlə tibb elminin parlaq səhifələrini təşkil edir.

Konfransa 71 tələbə 46 elmi iş təqdim edib. "AzerMed" QSC-nin dəstəyi ilə keçirilən tədbirdə 15 elmi iş mükafatlandırılıb. "Ən yaxşı poster", "Ən yaxşı eksperimental iş", "Ən yaxşı referativ iş" kimi nominasiyalar üzrə qalib olan tələbələrə diplom və xüsusi hədiyyələrlə yanaşı, pul mükafatları da təqdim edilib.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# Milli Məclis Fransa Senatının ölkəmizə qarşı qərəzli qərarını pislədi



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirildi. İclası açan parlament Sədrinin birinci müavini Əli Hüseynli gündəliyə 20 məsələ daxil edildiyini diqqətə çatdırdı.**

Əvvəlcə deputatlar cari məsələlər barəsində fikir və mülahizələrini bildirdilər. Çıxış edənlər bir neçə gün əvvəl depuat Fazil Mustafanın yaşadığı evin qarşısında terrora məruz qaldığını kəskin pislədilər. Qeyd edildi ki,F.Mustafaya qarşı edilən sui-qəsd Azərbaycan dövlətinə qarşı təhdiddir. Azərbaycan xalqını və dövlətini heç nə ilə qorxutmaq mümkün deyil. Xalqımız "dəmir yumruq" kimi birləşib və dövlətimiz çox güclüdür. Onlar belə çirkin hərəkətlərlə bizə heç nə edə bilməyəcəklər.

Sonra Əli Hüseynli gündəliyin birinci məsələsinin Milli Məclisin Fransa Senatının ölkəmizə qarşı qərəzli qərarını pisləyən Bəyanatla bağlı olduğunu dedi. Diqqətə çatdırdı ki, Fransa Senatında martın 16-da növbəti dəfə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş, beynəlxalq hüquqa açıq hörmətsizlik ifadə edən konfrans keçirilib. Fransa 44 günlük müharibə zamanı olduğu kimi, müharibədən sonra da Azərbaycanla bağlı qərəzli siyasətini davam etdirir.

Azərbaycan-Fransa parlamentlərarası işçi qrupunun sədri S.Məmmədov bildirdi ki, Fransa Avropa məkanında milli azlıqlara məxsus şəxslərin hüquqlarının mühafizəsi sahəsində ən fundamental sənədlərdən biri hesab olunan Milli Azlıqlar haqqında Çərçivə Konvensiyasını indiyə qədər imzalamayıb. Bununla yanaşı, Avropa Şurasının Regional və ya Azlıqların Dilləri üçün Avropa Xartiyasını ratifikasiya etməyib. Bu, əslində, Fransanın milli azlıqların hüquqlarına yanaşmasını əks etdirən faktlardır. Belə bir ölkənin başqalarına etnik azlıqların hüquqları ilə bağlı irad bildirməyə mənəvi haqqı yoxdur.

Müzakirələrdən sonra Bəyanat səsə qoyularaq qəbul edildi.

Sonra Ə.Hüseynli Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihəni birinci oxunuşda təqdim etdi. Layihədə qeyd olunub ki, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunun 2-ci maddəsinə "Vətən Müharibəsi Qəhrəmanı" medalı hissəsindən əvvəl "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı məzmunda yeni hissə əlavə edilsin.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İnam Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında növbəti məsələni də Ə.Hüseynli təqdim etdi. O, İ.Kərimovun fəaliyyəti barədə ətraflı məlumat verdi və onun bundan sonra da hüquqşünas alim kimi bilik və bacarığını digər hakimiyyət qolunda – Ali Məhkəmədə fəaliyyəti dövründə tətbiq edəcəyinə və Azərbaycanda ədalət mühakiməsinin effektiv və şəffaf həyata keçirilməsinə öz töhfəsini verəcəyinə inandığını vurğuladı.

Qərar layihəsi səsə qoyularaq qəbul edildi.

Sonra gündəlikdəki digər məsələlər də müzakirə olunaraq müvafiq qərarlar qəbul olundu.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

**2023-cü il martın 16-da Fransa Respublikasının Senatında keçirilmiş üzdəniraq "konfrans" ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları bildirir;**

Fransa parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur.

Fransa qanunvericilik orqanının səlahiyyətlərindən kənara çıxan bu hərəkəti Ermənistan ilə Azərbaycan arasında münaqişədən sonra normallaşma prosesinin irəli aparılması və sülh sazişinin bağlanması istiqamətində beynəlxalq subyektlərin səylərinin gücləndiyi, eləcə də Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin etnik erməni sakinləri arasında dialoq qurulması üçün tədbirlər görüldüyü bir vaxtda sülh prosesinə zərbə vuran, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn, revanşizmə rəvac verən bir addımdır.

Konstitusiyasında hər hansı etnik və milli azlıq anlayışı ümumiyyətlə nəzərdə tutulmayan, etnik və dini mənsubiyyəti fransızlardan fərqli insanların hüquqlarına açıq dözümsüzlük nümayiş etdirən, onların müvafiq beynəlxalq mexanizmlər ilə nəzərdə tutulmuş dil, din azadlığını və ya hər hansı digər hüquq və azadlıqlarını təmin etməkdən boyun qaçıran Fransanın, o cümlədən bu ölkənin qanunvericilik qurumunun başqa ölkələrin daxili işlərinə müdaxilə məqsədi ilə azlıqların hüquqlarını açıq-aşkar siyasi təzyiq alətinə çevirməsi, xüsusən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində məskunlaşan erməni azlığının "hüquqları və təhlükəsizliyi" məsələsində canfəşanlıq göstərməsi qəbuledilməzdir.

Çox uzaq keçmişə getmədən xatırlatmaq kifayətdir ki, Fransa parlamenti Azərbaycandakı etnik erməni azlığının "hüquqları və təhlükəsizliyi" naminə qondarma təşəbbüslərə girişdiyi bir vaxtda, bu ölkədə məhkəmə vasitəsilə Korsika adasının yerli parlamentinin debatlar üçün fransız dilindən başqa bir dildən istifadə edilməsi barədə adət qaydasının qadağan olunduğuna dair qərar verilir, ümumiyyətlə, "Korsika xalqı" ifadəsinin Fransa Konstitusiyasına zidd olduğu təsbit edilir.

Fransa öz ərazisində yaşayan aborigen bir azlıq barəsində "xalq" ifadəsinin işlədilməsini Konstitusiyaya zidd addım kimi qadağan etdiyi halda, Azərbaycan vətəndaşlarının bir hissəsini qondarma "Dağlıq Qarabağ xalqı" və ya "Artsax xalqı" kimi qəbul edir, özünü onların guya pozulmuş hüquqlarının müdafiəçisi kimi qələmə verməyə çalışır.

Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa müstəmləkə hakimiyyəti altında saxlamaqda davam etdiyi Mayot adası üzərində Qəmər Adaları İttifaqının şəksiz suverenliyini tanımaqdan boyun qaçırır, Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmətsizlik nümayiş etdirir.

Azərbaycanda yaşayan ermənilərin hansısa hüquqlarından "narahatlıq" ifadə edən Fransa parlament üzvlərinin mövcudluğu rəsmən inkar edilən milyonlarca Fransa vətəndaşının üzləşdiyi genişmiqyaslı ayrı-seçkilik barəsində müzakirələr aparması daha məntiqli olardı.

Azərbaycan Respublikasının daxili işlərinə davamlı müdaxilə edən Fransa Senatının və Milli Assambleyasının üzvləri 2021-ci ildə Fransa prezidentinin şəxsi təşəbbüsü ilə "separatizmə qarşı mübarizə və respublika prinsiplərinə hörmət" barəsində qanunlar qəbul etmişlər. "İslam terrorizminə" və ya "islam separatizminə" qarşı mübarizə adı altında qəbul olunan bu cür qanunlardan ölkədə din, dil, vicdan azadlığını kütləvi şəkildə məhdudlaşdırmaq üçün istifadə edilir, odur ki, Fransa parlament üzvlərinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan, Azərbaycan ərazisində separatizmi açıq şəkildə şirnikləndirən davranışı siyasi riyakarlığın ən bariz təzahürüdür.

Bütün bunlar Fransanın Cənubi Qafqaza yanaşmasının ikili standartlar üzərində qurulduğunu, Ermənistan və Azərbaycan ilə münasibətlərdə eqoist geosiyasi maraqlara əsaslandığını açıq nümayiş etdirir.

Azərbaycan ərazilərinin işğal altında olduğu onilliklər ərzində münaqişənin həlli üçün real addım atmayıb, Ermənistanın işğalçılıq siyasətini dəstəkləməyə üstünlük vermiş, münaqişə həll edildikdən sonra da onun yanında yer almış, həm milli səviyyədə, həm də beynəlxalq müstəvidə müxtəlif platformalarda Ermənistanı revanşizmə şirnikləndirən addım və təşəbbüslərin müəllifi olan Fransanın bölgədə itirdiyi mövqelərini kobud üsullarla bərpa etmək cəhdləri uğursuzluğa məhkumdur.

Belə bir məqam da nəzərə alınmalıdır ki, öz davranışı ilə Fransa nəinki Cənubi Qafqaz regionunun, həm də bütövlükdə Avropanın sülh, sabitlik və dayanıqlı inkişafla bağlı maraqlarına zərbə vurur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycana ədalətsiz, qeyri-obyektiv və qərəzli münasibətini dəfələrlə nümayiş etdirmiş Fransanın öz siyasətini yenidən nəzərdən keçirmədikcə, Ermənistanla Azərbaycan arasında normallaşma məsələlərinə hər hansı formada cəlb olunmaması barədə Azərbaycan Hökumətinə müraciət qəbul etmişdir. Fransa tərəfinin son təxribatçı addımları şəraitində Azərbaycan parlamenti prinsipial mövqeyini bir daha təsdiq edərək, Fransa Senatını Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi kimi yanlış praktikadan əl çəkməyə, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı hərəkətlərdən, onun daxili işlərinə müdaxilədən çəkinməyə, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaradılmasına xidmət edən addımlar atmağa çağırır.

**(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il 4 aprel tarixli iclasında qəbul edilmişdir)**

# İ.İ.Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-4-cü maddəsinin birinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Əli HÜSEYNLİ,**
**Azərbaycan Respublikasının Milli Məclisi sədrinin birinci müavini**

**Bakı şəhəri, 4 aprel 2023-cü il**

# Fazil Mustafaya qarşı sui-qəsddə şübhəli bilinən şəxslər barədə qərar verildi

**Deputat Fazil Mustafaya qarşı törədilmiş sui-qəsdlə bağlı saxlanılan şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı DTX İstintaq Baş İdarəsinin müstəntiqi tərəfindən verilən vəsatətlərə baxılıb.**

Səbail rayon Məhkəməsində hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə saxlanılanlardan 3 şəxs barəsində 4 ay müddətinə, 1 şəxs barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277 (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb.

***"Xalq qəzeti"***



# Azərbaycan erməni sakinlərin reinteqrasiyasında qərarlıdır

**Azərbaycan erməni sakinlərin reinteqrasiyasında qərarlıdır. Bunu xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Bik Lum ilə görüşündə deyib.**

B.Lumu təyinatı münasibətilə təbrik edən nazir Ceyhun Bayramov, ona yeni vəzifəsinin icrasında uğurlar arzu edib.

Nazir, həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişədən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərdə aparılan intensiv bərpa və yenidənqurma işlərindən bəhs edərək, bu işlər çərçivəsində artıq məcburi köçkünlərin Ağalı və Talış kəndlərinə qayıtmağa başladığını qeyd edib. Nazir Ceyhun Bayramov ölkəmizin həmçinin erməni sakinlərin reinteqrasiyasında qərarlı olduğunu vurğulayıb.

Görüş zamanı, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Aprelin 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının Bakı ofisinin rəhbəri Petr Zix ilə görüşüb.

Görüş zamanı, Azərbaycan və Avropa Şurası arasında geniş əməkdaşlıq gündəliyinin mövcudluğuna istinad olunaraq, bu xüsusda münasibətlərin inkişafında qəbul olunmuş Fəaliyyət planlarının, o cümlədən 2022-2025-ci illər üzrə Fəaliyyət Planının vacibliyi diqqətə çatdırılıb. Milli qanunvericiliyin beynəlxalq qanunvericiliyə uyğunlaşdırılmasının, qanunun aliliyinin təmin olunması istiqamətində aparılmış çoxsaylı islahatların Azərbaycan və Avropa Şurası arasında mövcud əməkdaşlığın nəticələri olduğu qeyd edilib.

Petr Zix Azərbaycan və Avropa Şurası arasında əməkdaşlığın qarşılıqlı anlaşma və etimad əsasında uğurla davam etdiyini diqqətə çatdırıb. O, həmçinin münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və təmasların vacibliyini vurğulayıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ADA Universiteti, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən təlimdə iştirak məqsədilə Azərbaycana səfər edən UNESCO-nun Əddis-Əbəbədəki Ofisinin rəhbəri Rita Bissoonauth və Qvineya Respublikası, Konqo, Kot-d'İvuar, Niger, Benin, Toqo, Burkina Faso, Ekvatorial Qvineya, Cibuti, Qabonun UNESCO üzrə Milli Komissiyalarının baş katibləri ilə görüşüb.

Nazir Ceyhun Bayramov Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyinin əlaqələrin daha da inkişafına töhfə verdiyini bildirərək, Azərbaycanın cari ilin mart ayında Bakıda keçirilən QH-nın COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasına dəstək göstərmək məqsədilə 2 fond üzrə qlobal çağırış bəyan etdiyini diqqətə çatdırıb.

Ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT) və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verdiyini bildirən nazir Ceyhun Bayramov bu xüsusda, Azərbaycanın donor ölkə qismində təhsil, mədəniyyət, idman və elm sahələrində UNESCO ilə yaxından əməkdaşlıq etdiyini bildirib. Bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsi sahəsində Afrika ölkələrinin UNESCO üzrə Milli komissiyalarının baş katibləri üçün keçirilmiş təlim proqramının faydalı olacağına dair inam ifadə olunub.

UNESCO-nun Əddis-Əbəbədəki Ofisinin rəhbəri Rita Bissonaut, Afrikanın 10 ölkəsinin UNESCO üzrə Milli komissiyalarının baş katibləri üçün nəzərdə tutulmuş təlim proqramının təşkilinə görə təşəkkür edib. Sözügedən təlim proqramının UNESCO çərçivəsində Azərbaycan və Afrika ölkələri arasında əlaqələrin genişləndirilməsində mühüm rol oynayacağı diqqətə çatdırılıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Qarabağda "Gizli ölüm toxumları"

**Aprelin 4-də Beynəlxalq Mina Xəbərdarlığı və Mina Təhlükəsi ilə Mübarizəyə Yardım Günü ilə əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), "PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin dəstəyi ilə ərsəyə gəlmiş "Gizli ölüm toxumları" kitabının təqdimatı keçirilib.**

Mərasimdə çıxış edən işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurması üzrə Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin rəhbər müavini Sultan Hacıyev, Xarici işlər nazirinin müavini Fariz Rzayev, ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildiriblər ki, hazırda dünyada 70-dən çox ölkə mina problemi yaşayır və Azərbaycan da belə ölkələrdəndir. Qarabağda mina təmizliyi ilə ciddi mübarizə gedir. 75 min hektardan çox ərazi minadan təmizlənib. 85 mindən çox mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.




Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev və "İRS" jurnalının baş redaktoru Musa Mərcanlı çıxışlarında diqqətə çatdırıblar ki, İkinci Qarabağ müharibəsindən sonra, 300-ə yaxın azərbaycanlı mina partlayışı nəticəsində həlak olub və ya xəsarət alıb. "Gizli ölüm toxumları" kitabı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində törədilən mina terrorunun, mina və partladıcı sursatların yaşatdığı dəhşətin dünya ictimaiyyətinə, beynəlxalq qurumlara çatdırmaq məqsədi ilə hazırlanıb.

***"Xalq qəzeti"***

# Azərbaycan QHT-ləri mina problemi ilə əlaqədar BMT Baş katibinə müraciət ünvanlayıb

**Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü ilə əlaqədar BMT-nin Baş katibi Antonio Quterreşə müraciət ünvanlayıblar.**

**Müraciətdə deyilir ki,**

"Azərbaycan minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələrdən biridir:" Təəssüf ki, biz minalar və partlamamış hərbi sursatların yaratdığı təhlükə və qorxu ilə tanışıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik işğalı zamanı Ermənistanın minalardan istifadə etməsi bu gün də dinc əhali üçün böyük təhlükə yaradır. Son 30 ildə mina qurbanlarının ümumi sayı 3368 nəfərdir. Münaqişənin bitdiyi 2020-ci il 10 noyabr tarixindən bəri isə 501 nəfər həlak olub, 238 nəfər yaralanıb.

Daha sonra bildirilir ki, humanitar minatəmizləmə fəaliyyəti Azərbaycan üçün əsas prioritetdir. QHT-lərlə tərəfdaşlıq, qabaqcıl texnologiya, maarifləndirmə, qadın minatəmizləmə qrupları və mina qurbanlarına yardım proqramları vasitəsilə minatəmizləmə potensialının gücləndirilməsi istiqamətində böyük səylər davam etdirilir. Ölkəmiz humanitar minatəmizləmə sahəsində fəaliyyət göstərən bir sıra əsas qurumlarla, o cümlədən sizin rezident əlaqələndirici ofisiniz, UNICEF, BMTİP və digərləri ilə tərəfdaşlıq edir. Həmçinin Azərbaycan öz təcrübəsini bölüşür. 2023-cü il may ayının sonunda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olması üzrə minatəmizləmə fəaliyyətinin bir hissəsi olaraq İkinci Beynəlxalq Minatəmizləmə Konfransı keçiriləcək. Biz humanitar minatəmizləmənin sülhün qurulması prosesindəki böyük potensialına inanırıq.

**Bəyanat bu sözlərlə bitir:**

"4 aprel minalar və partlamamış hərbi sursatların məhv edilməsi istiqamətində inkişafı qeyd etmək günüdür. Həmçinin bu, qarşımızda hələ çox uzun bir yol olduğunu xatırladır. Biz səylərimizin dəstəklənməsindəki dəyərli tərəfdaşlığınıza güvənirik. Bu dəstək ümumi məqsədimiz olan minalardan təmizlənmiş dünya üçün çox önəmlidir."

***"Xalq qəzeti"***

# Azərbaycanın beynəlxalq daşımalarda payı getdikcə artır



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar 29 mart 2023-cü il tarixli Fərman imzalayıb. Bununla da beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsi sahəsində gömrük orqanları üzərinə düşən vəzifə ləğv olunub. Eyni zamanda, beynəlxalq daşımalarla bağlı nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyənləşdirilən dövlət rüsumu da aradan qaldırılıb.**

Beləliklə, xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə icazə blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində reallaşdırılmasının ləğvi ilə kvotadan artıq xarici nəqliyyat vasitələrinin ölkə ərazisinə daxil olmasına imkan verilməməsi şərtləndirilib. Həmçinin beynəlxalq daşımaların iştirakçısı olan respublikamıza məxsus avtomobil daşıyıcılarının Azərbaycanın geniş nəqliyyat-logistika imkanlarından fəal və səmərəli istifadəsinə əlverişli şərait yaradılıb. Bu cür qayda beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payının artmasına və beynəlxalq səviyyədə rəqabətliliyin yüksəlməsinə münbit zəmin yaradıb.

Göründüyü kimi, dövlətimizin başçısının yuxarıda adıçəkilən fərmanı Azərbaycanın son illərdə beynəlxalq daşımalar üzrə əldə etdiyi nəticələrin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Elə hazırda ölkə sərhədlərini keçən avtomobillərin sayının getdikcə artması da bu sahədə böyük perspektivlər vəd edir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin məlumatına görə, ölkəmizin beynəlxalq yükdaşımalarda da fəaliyyəti getdikcə genişlənir. Ötən il bu istiqamətdə istifadə olunan nəqliyyat vasitələrinin sayı 8 mini ötüb. Nəqliyyat vasitələrinin sayında artım bazarın şəffaflaşması nəticəsində "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınması, fəaliyyəti olmayan daşıyıcıların işini bərpa etməsi, bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına yaranıb.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2022-ci ildə Azərbaycanın nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 218,7 milyon ton yük daşınıb ki, bu da əvvəlki illə müqayisədə 12,8 faiz çoxdur. Yüklərin 57,6 faizi avtomobil nəqliyyatı ilə daşınıb.

Bu məqamda Bakı Beynəlxalq Dəniz Limanı ilə bağlı yükdaşıyıcıların statistikasına da diqqət yetirək. Belə ki, 2021-ci ilin ilk altı ayı ərzində Bakı Limanı vasitəsi ilə 18 075 ədəd TIR daşınmışdısa, ötən ilin müvafiq dövründə həmin göstərici 23 410 ədəd olub. Bu isə 29,5 faiz artım deməkdir.

Bununla yanaşı, 2021-ci illə müqayisədə Şərq-Qərb nəqliyyat dəhlizi üzrə yükdaşımalar 500 min ton artaraq 3,9 milyon ton, Şimal-Qərb nəqliyyat dəhlizi ilə 2 milyon ton artaraq 2,9 milyon ton olub. Şimal-Cənub nəqliyyat dəhlizi ilə yükdaşımalarda 90 faiz artım qeydə alınıb. Transxəzər beynəlxalq nəqliyyat marşrutu üzrə daşımalarda artım isə 41 faiz təşkil edib.

Yeri gəlmişkən, yük daşımalarının artmasında Orta Dəhlizin fəaliyyəti də diqqət çəkir. Xatırladaq ki, Orta Dəhliz Çindən Avropaya quru yolla daşınan yüklərin Qazaxıstan və Azərbaycandan keçərək ötürülməsini nəzərdə tutur. Çin yükləri Qazaxıstanın sərhəddə yerləşən Dostık dəmir yolu stansiyasından daxil olaraq birbaşa Xəzərdə yerləşən Aktau dəniz limanına daşınır və oradan bərə ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gətirilir. Buradan isə Türkiyə və Gürcüstanın Qara dəniz limanları vasitəsi ilə Avropaya ötürülür.

Qeyd edək ki, ötən il Orta dəhlizlə tranzit yük daşımaları 75 faiz artıb və 15 milyon tonu keçib.

Nazirlər Kabinetinin Milli Məclisə hesabatında isə bildirilir ki, ötən il Azərbaycan ərazisindən keçən tranzit yükdaşımalar 75 faizdən çox artıb. Eyni zamanda, Azərbaycan Orta Dəhlizin təşviqinə öz töhfəsini verib. Belə ki, tranzit silsiləsində olan qurumlarda infrastrukturun yaxşılaşdırılması və müvafiq ötürücülük qabiliyyətinin artırılması istiqamətində tədbirlər davam etdirilib. Bununla da hesabat dövründə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə ümumi yükaşırmanın həcmi 15 faiz artaraq 6,4 milyon ton təşkil edib ki, onun da 89 faizi tranzit yüklərin payına düşüb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*

**Emin BAĞIROV,**
**Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru:**



–Azərbaycanın dünya standartlarına cavab verən magistral avtomobil və dəmir yolları, yol ötürücüləri və körpüləri beynəlxalq yük və sərnişin daşımaları üçün olduqca əlverişlidir. Ölkəmiz tarixi İpək Yolunun üzərində yerləşir, Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında səmərəli körpü rolunu oynayır və bütün bunlar respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində yüksək uğurlar əldə etməsinə əhəmiyyətli təsir göstərir. Prezident İlham Əliyev bununla bağlı çıxışlarının birində deyib: "Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır…Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar".

Dövlətimizin başçısı tərəfindən "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar 29 mart 2023-cü il tarixli fərman imzalaması da respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakını şərtləndirmək baxımından mühüm önəm daşıyır.

Onu da qeyd edim ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həm ölkəmiz, həm də ayrı-ayrı dövlətlər tərəfindən beynəlxalq nəqliyyat dəhlizlərində yükdaşımaların artırılması üçün Azərbaycanın tranzit imkanlarını genişləndirmək məqsədilə genişmiqyaslı layihələr reallaşdırılır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, beynəlxalq yük və sərnişin daşımalarda Azərbaycanın avtomobil daşıyıcılarının da yaxından iştirakı təmin olunub. Təkcə onu vurğulamaq kifayətdir ki, 2022-ci ildə yerli avtomobil daşıyıcıları tərəfindən gerçəkləşdirilən "3-cü ölkədən 3-cü ölkəyə" daşımalar iki dəfə artırılıb. Ötən il xarici daşıyıcıların isə bu sahədə iştirakı 5 faiz azalıb. Son dövrlər respublikamızda beynəlxalq daşımalar sahəsində fəaliyyət göstərən şirkətlərin sayında da tüksək artıma nail olunub. Bu sahədə qəbul olunan normativ-hüquqi sənədlər, magistral avtomobil yollarının dünya standartları səviyyəsində yenidən qurulması nəticəsində daşıyıcı şirkətlərin sayı 70-dən 218-ə çatdırılıb.

Yeri gəlmişkən, burada bir məqama da toxunmaq istərdim. Rusiya–Ukrayna müharibəsi başlayandan indiyədək dünyanın ən böyük yükdaşıma şirkətləri tərəfindən Azərbaycan üzərindən daşımaları şərtləndirən Orta Dəhlizdən istifadəyə start verilib. Bu isə ölkəmizin ərazisindən tranzit yükdaşımaların həcmində kəskin artıma gətirib çıxarıb.

Qeyd edim ki, Orta Dəhliz Bakıda aparılan işlərlə yekunlaşmır. Layihə çərçivəsində Xəzərin şərq sahilində inkişaf etdirilən və genişləndirilərək modernləşdirilən limanlar arasında Kurık (Qazaxıstan) və Türkmənbaşı (Türkmənistan) da var.

Kurıkın illik emal gücü 4,1 milyon ton və ya 20 futluq ekvivalentdə 240 min konteyner idisə, hazırda həcm təxminən 6 milyon tona çatdırılıb.

Türkmənbaşı limanının gücü isə 4 milyon ton və 20 futluq ekvivalentdə 400 min konteyner olduğundan, ilk baxışdan real daşıma həcmləri üçün kiçik sayıla bilər. Lakin Orta Dəhliz sürətlə inkişaf etdiyindən, Türkmənistanın layihədəki yeri və rolu da dəfələrlə artacaq.

Orta Dəhlizin tam gücü ilə işə düşməsi üçün gömrük sənədləşdirilməsinin unifikasiyası, "vahid pəncərə" sistemi və tarif siyasəti çərçivəsində ümumi prinsiplərin hazırlanması da sürətlənib. Bütün bunlar isə marşrutun həm kommersiya dəyərini, həm də geosiyasi önəmini artırmağa hesablanıb.

Beləliklə, Orta Dəhliz yalnız Azərbaycanın yox, bütün regionun iqtisadi inkişafına təkan verəcək, bölgədə sülh və sabitliyin bərqərar olması üçün əlavə təsir vasitəsinə çevriləcək, Avropa İttifaqı ölkələrinə yükdaşımaların fasiləsizliyini təmin edəcək.




## "Startup School"un açılış mərasimi olub

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu "Enterprise Azerbaijan" portalı və ABŞ-nin Nevada Universitetinin Özmən Sahibkarlıq Mərkəzi ilə birgə yaratdığı "StartUp School"un rəsmi açılış mərasimi keçirilib.**

Mərkəzdən bildirilib ki, onlayn açılışı İİTKM-in icraçı direktoru Vüsal Qasımlı edib. O, əvvəlcə qalib layihələri təbrik edərək, "Startup School"un Azərbaycanın startap ekosistemində tezliklə özünəməxsus yer tutacağından əminliyini diqqətə çatdırıb.

Daha sonra Amerika Birləşmiş Ştatlarının Nevada Universitetinin Özmən Sahibkarlıq Mərkəzinin direktoru Mehmet Tosun qalib layihələr ilə birgə fəaliyyətin uğurlu olacağını vurğulayaraq, gələcək perspektivlərdən danışıb.

"Enterprise Azerbaijan" portalının rəhbəri Mətanət Musayeva "Startup School"un açılış mərasimində qəbul prosesi, seçim turları, eləcə də qəbul statistikası ilə bağlı ətraflı məlumatlar təqdim edib. Portal rəhbəri tərəfdaş qurumlarla iş prinsipi, mentorların görəcəyi işlər haqqında məlumat verib.

Açılış mərasimində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin departament direktoru Yevgeniya Bikmurzina, Dövlət Məşğulluq Agentliyinin şöbə direktoru Taleh Hüseynli, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin KOBİA-nın Katibliyinin rəhbəri Elmar İsayev, "PASHA Bank"ın şöbə rəhbəri Zaur Bağırov, SABAH. Labın idarəedici direktoru Orxan Abbasov layihədə iştirakları ilə bağlı məlumatlar veriblər.

Açılış mərasiminin ardınca, "Startup School"da ilk dərs Nevada Universitetinin professoru Mehmet Tosun tərəfindən aparılıb. Treninqlərə aprel ayı boyunca ekspertlər tərəfindən seçilən 33 layihə qoşulacaq.

Sonda seçilən 9 layihə (komanda) SABAH.Labın İnkubasiya Mərkəzində 2 həftə ərzində mentorluq proqramına qatılacaq, layihələr arasından ilk 3 yerin qalibi müəyyənləşdiriləcək.

***"Xalq qəzeti"***

# Yeni qərar neft bazarına necə təsir edəcək?




**Aprelin 2-də Neft İxrac Edən Ölkələr Birliyi (OPEC+) may ayından etibarən neft hasilatını gündəlik 1,66 milyon barel azaltmaqla bağlı qərar qəbul edib. Yeni qərar "OPEC+" Nazirlərinin Monitorinq Komitəsinin aprelin 3-də keçirilən iclasının yekunlarına əsasən təsdiqlənib.**

*Ekspert rəyi*

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



"OPEC+"ın son qərarı bazar iştirakçıları üçün gözlənilməz oldu. Çünki indiyədək belə bir qəfil addım 2016-cı ilin dekabr ayında atılmışdı. Məlum olduğu kimi, həmin vaxt dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması fonunda "OPEC+" formatında fəaliyyət başlamışdı. Adətən, Monitorinq Komitəsi əvvəlcə tovsiyəsini verirdi. Ondan bir gün sonra nazirlər səviyyəsində görüş keçirilir və qərar qəbul olunurdu.

Ancaq bu ildən belə qərar qəbul olundu ki, nazirlərin hər dəfə yığışmasına ehtiyac yoxdur. Hətta belə bir görüş onlayn formada belə məsləhət bilinmirdi. Monitorinq Komitəsi özü hansı qərara gəlirdisə, o da kifayət edirdi. Çünki faktiki olaraq böyük bir dəyişiklik olmurdu. Adətən, müəyyən bir qərar qəbul edilməmişdən öncə hansısa bir ölkənin naziri səviyyəsində bazara mesajlar göndəririlir, reaksiyalar öyrənilirdi. Həmçinin müəyyən məsləhətləşmələr aparılırdı. Ancaq indi tam əksi oldu. Bazar günü ortaya məsələ atıldı. Bir gün sonra isə qərar elan edildi. Özü də çox maraqlıdır ki, OPEC+ səviyyəsində 23 ölkədən 9-u könüllü şəkildə may ayından gündəlik hasilatın 1 milyon 660 min barel azaldılması ilə bağlı qərarı dəstəklədi. Bu, çox böyük bir həcmdir.

Belə bir addım isə bazar iştirakçıları tərəfindən nəinki təəccüblə qarşılandı, hətta şok effekti yaratdı. Nəticə etibarilə əgər ötən həftənin cümə günündə London birjasında "Brent" markalı neftin bir bareli 79 dollarla satılmışdısa, bazar ertəsi qiymətlərdə 84 dollaradək artım müşahidə olundu. Ayın 4 də isə qiymət 85 dolları ötdü. Yəni bazar buna adekvat münasibətini göstərir. Digər tərəfdən, ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, eləcə də Yaponiya "OPEC+"ın qərarını, yumşaq desək, yaxşı qarşılamadılar. Hətta bunu təlatümlü dövrünü yaşayan bazarı yeni bir element əlavə edilməklə arzuolunmaz vəziyyətə gətirən bir addım kimi dəyərləndirdilər. Avropa Komissiyası isə hesab edir ki, yüksək inflyasiya ilə əlaqədar enerjidaşıyıcılarının qiymətinin aşağı salınmasına səy göstərildiyi bir dövrdə OPEC+ çərçivəsində atılan bu addım enerji bazarında qiymət artımına gətirib çıxarır. Bu isə öz növbəsində digər mal və xidmətlərin də qiymətlərinin artmasına səbəb olur. Nəticə etibarilə dünya iqtisadiyyatına mənfi təsirlər gündən-günə çoxalır.

Düşünürəm ki, Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar ötən ildən dünyada gedən qütbləşmənin nəticəsi olaraq kollektiv Qərb və Rusiya, Çin, Şimali Koreya, İran, eləcə də iqtisadi baxımdan neftdən asılı olan ölkələr arasında çox kəskin mübarizə gedir. Bir tərəf enerji daşıyıcılarının qiymətinin aşağı salınmasında maraqlıdırsa, digər tərəf özünün iqtisadiyyatının artan ehtiyaclarını ödəmək üçün neftin qiymətinin bahalaşmasından əldə etdikləri gəlir hesabına nələrəsə nail olmağa ümid bəsləyirlər. Ancaq, təbii ki, bütün bunlar çıxış yolu deyil.

Bu addımın qlobal enerji bazarının sabitliyini təmin etmək üçün atıldığını bildirən təşkilat üzvləri hesab edirlər ki, may ayından 2023-cü ilin sonuna kimi neft hasilatının könüllü azaldılması ilə bağlı qərar 2022-ci ilin noyabr ayından qüvvəyə minən gündəlik 2 milyon barel hasilatın azaldılmasına əlavə olaraq ehtiyat tədbiridir. Bununla da, "OPEC+"ın Monitorinq Komitəsi ötən ilin oktyabrında Vyanada keçirilmiş görüşdə əldə olunmuş razılaşmalara sadiqliyini bir daha təsdiqləyib.

Qurumun bu addımı üzv dövlətlər tərəfindən razılıqla qarşılanıb. Məsələn, Səudiyyə Ərəbistanının Energetika Nazirliyi qeyd edib ki, hasilatın könüllü şəkildə azaldılmasına dair qərar bir sıra "OPEC+" ölkələri ilə razılaşdırılaraq qəbul edilib. Nazirlik bəyan edib ki, bu, neft bazarında sabitliyin qorunmasına yönəlmiş qabaqlayıcı tədbirdir. Hətta Səudiyyə Ərəbistanı könüllü olaraq neft hasilatını mövcud kvotadan da artıq azaldacağını bildirib. Belə ki, bu ölkə may ayından 2023-cü ilin sonunadək gündəlik neft hasilatını 500 min barel azaldacaq. Bununla yanaşı, "OPEC+"ın qərarını dəstəkləyən Rusiya Baş nazirinin müavini Aleksandr Novak rəsmi Moskvanın könüllü olaraq gündəlik neft hasilatını 500 min barel, İraqın Neft Nazirliyi 211 min barel, Küveytin neft naziri Bader əl-Mulla 128 min barel, Qazaxıstanın Energetika Nazirliyi 78 min barel, Əlcəzairin Energetika Nazirliyi 48 min barel və Omanın Energetika Nazirliyi 40 min barel azaldacaqlarını bəyan ediblər. Həmin ölkələrin bu qərarı isə may ayından 2023-cü ilin sonunadək reallaşdırılacaq və hasilat gündəlik 1,1 milyon barel təşkil edəcək.

Azərbaycana gəldikdə isə, ölkəmiz gündəlik neft hasilatının həcmi ilə bağlı "OPEC+"ın qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə seçilib. Belə ki, 2022-ci ildə Azərbaycanda gündəlik neft hasilatı 577,7 min barel təşkil edib ki, bu da OPEC+ razılaşmasına 124,1 faiz əməl olunması deməkdir.

Yeri gəlmişkən, "OPEC+" ölkələrinin neft hasilatının azaldılması ilə bağlı son qərarı heç də birmənalı qarşılanmayıb. Məsələn, bu qərarın təəssüf doğurduğunu bəyan edən ABŞ-ın maliyyə naziri Canet Yellen bir sıra "OPEC+" ölkələrinin neft hasilatını azaltmaq qərarının nəticələrini hələ də proqnozlaşdıra bilmədiyini söyləyib. "Bunun qiymətlərə necə təsir edəcəyinə hələ əmin deyiləm. Düşünürəm ki, bu addımı həqiqətən qiymətləndirmək üçün bir az daha gözləmək lazımdır",–deyə C. Yellen əlavə edib.

Bəs, "OPEC+"ın yeni qərarı "qara qızıl"ın qiymətinə necə təsir göstərəcək? Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, qurumun neft hasilatını sutkada 1 milyon 660 min barel azaltmaqla bağlı kəskin qərarı treyderləri şoka salıb. Ekspertlər isə hesab edirlər ki, bazarda təklifin azalması neftin qiymətinin kəskin artmasına səbəb olacaq. Hətta "Bloomberg" agentliyi belə bir gözlənilməz qərarın yanacağın qiymətinin bir barel üçün ən azı 100 dollara qalxacağını bəyan edib.

Heç şübhəsiz, yeni qərarın bazarda böyük canlanmaya səbəb olacağı gözlənilən idi. Bazar ertəsi, ümumilikdə, qiymətlər gün ərzində 5 faiz artaraq bir barel üçün 83,94 dollar səviyyəsində olub. Cəmi bir gün sonra isə ICE London qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarının gedişində "Brent" neftinin ixracına dair 2023-cü ilin iyun müqaviləsinin dəyəri 0,45 faiz artaraq 1 barelə görə 85,31 dollar təşkil edib. Bununla yanaşı, çərşənbə axşamı Nyu-Yorkun NYMEX əmtəə birjasında WTI markalı neftin 1 barelinin qiyməti bu ilin may ayı üçün 0,48 faiz artaraq 80,81 dollara çatıb.

Həftənin ilk günündə Azərbaycan neftinin qiymətində də kəskin artım müşahidə olunub. Belə ki, dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 5,93 ABŞ dolları, yaxud 7,24 faiz artaraq 87,81 ABŞ dolları təşkil edib. Bu, mart ayının 7-dən bəri qeydə alınan ən yüksək qiymət həddidir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

## Böyükşor gölündə üzən günəş panelləri quraşdırılacaq

**Energetika nazirinin müavini Elnur Soltanovun bildirdiyinə görə, Azərbaycan hökuməti Asiya İnkişaf Bankı ilə birlikdə Bakıda Böyükşor gölü üzərində üzən günəş panellərinin quraşdırılması ilə bağlı layihənin icrasına başlayıb. Layihənin icrası hesabına 0,1 mVt-lıq enerji gücünün əldə edilməsi nəzərdə tutulub.**

Nazir müavini qeyd edib ki, üzən günəş panelləri quruda olan panellərdən daha baha başa gəlir. Adətən belə layihələrdə investor vəsaiti dövlətdən tələb edir. Azərbaycanda isə bərpaolunan enerji tarifləri o qədər də yüksək deyil. Ona görə də respublikamızda Böyükşor gölündə üzən günəş panellərinin quraşdırılması pilot layihə kimi sınaqdan keçirilir.

***"Xalq qəzeti"***

Zəfər tariximiz

# Böyük Qələbənin müjdəsi – Aprel döyüşləri

**1994-cü ildə Bişkekdə atəşkəs müqaviləsinin imzalanmasından sonra baş vermiş Aprel döyüşlərində ordumuz böyük strateji üstünlüklər əldə etdi. Bu döyüşlər həm də gələcək qalibiyyətimizin müjdəsi kimi tarixə düşdü. Təbii ki, İkinci Qarabağ müharibəsindən sonra Aprel döyüşləri başqa məna kəsb edirdi. Bəs Azərbaycan xalqının hərb tarixinə qızıl hərflərlə yazılmış bu döyüşlərin əhəmiyyəti nədə idi? "Aprel döyüşləri" nəyi dəyişdi, nəyi öncədən müəyyənləşdirdi?**



Düşmən Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ilk dəfə olaraq, Azərbaycan Ordusunun gücünü hiss etdi. Bundan başqa, 2016-cı ilə qədər Azərbaycan faktoru Ermənistanda hakimiyyətdə olan "Qarabağ klanı"nın mövqelərini gücləndirirdi. Ermənistan cəmiyyət hesab edirdi ki, onları Azərbaycanın qisasından qoruya biləcək insanlar məhz Serj Sarkisyan komandasıdır. İşğalçı ölkədə belə bir mif dolaşırdı. Amma 2016-cı ilin baş vermiş Aprel döyüşlərindən sonra bu mif darmadağın oldu. Hərbi meydanda məğlubiyyət sonda Ermənistanda Nikol Paşinyan komandasının hakimiyyətə gəlməsinə şərait yaratdı.

Təbii ki, Aprel döyüşlərinin nəticələri Ermənistan ictimaiyyətində böyük narahatlıqların baş qaldırmasına səbəb oldu. Həmin döyüşlər Ermənistan ordusunun məğlubedilməzliyi mifini alt-üst etdi. Ermənilər anladılar ki, Azərbaycan Ordusu qarşısında tab gətirməyəcəklər. Eyni zamanda, Aprel döyüşləri həm də ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinə, həmsədrlərin açıq desək, dişsiz mövqeyini ifşa edən güclü siqnal oldu. Qeyd edək ki, Ermənistan parlamenti hələ 2019-cu ildə Aprel döyüşlərində məğlubiyyətin səbəblərini araşdıran müvəqqəti komissiya yaratmışdı. Bu iş üzrə sabiq prezident Serj Sarkisyanın dəfələrlə ifadə verdiyi açıqlanır. Yekəxana və özündən razı danışan quldurbaşı S.Sarkisyan Aprel döyüşlərişdən sonra müsahibəsində işğal olunmuş 7 rayonun Azərbaycana qaytarılmasını müzakirə etdiyini bildirmişdi. Onu belə müzakirələrə başlamağa, əlbəttə ki, 2016-cı il Aprel döyüşlərinin nəticələri vadar etmişdi.

Aprel döyüşləri erməni mütəxəssisləri tərəfindən də geniş müzakirə edilir. Qafqaz İnstitutunun direktoru, politoloq Aleksandr İskəndəryan deyir ki, Aprel döyüşündən sonra erməni tərəfinin məğlub olması ilə bağlı fikirlər səsləndi. Ancaq indi, 2020-ci ilin payız müharibəsindən sonra məğlubiyyətin nə olduğu və necə baş verdiyi aydınlaşdı. Bundan başqa, indi məlum oldu ki, Azərbaycanın Aprel müharibəsində əsas məqsədi Ermənistan ordusunun müdafiə qabiliyyətini yoxlamaqdan ibarət imiş. Onun sözlərinə görə, Ermənistan tərəfi üçün bu, iki nöqtədə lokal əməliyyat idi: "Uzaq cənubda (Lələtəpə) və uzaq şimalda (Talış). Siz buna müharibə deyə bilməzsiniz, bu, yerli toqquşma və kəşfiyyat xarakterli döyüş, böyük hərbi eskalasiya idi". A.İskəndəryan əsl müharibənin 2020-ci ildə olduğunu vurğulayır. Onun fikrincə, Azərbaycanın 2020-ci ildə qarşısına qoyduğu hədəflər 2016-cı ildəkindən fərqlənirdi. 2016-cı ilin Aprel döyüşündən sonra növbəti müharibədə dronların böyük rol oynayacağı aydınlaşmışdı. Sonradan məlum oldu ki, Ermənistan Aprel döyüşlərindən dərs götürmədi.

Erməni ekspert məğlubiyyətin səbəblərini də açıqlayır. Onun sözlərinə görə, ermənilər hələ də düşünürdülər ki, həmişə belə olacaq, yəni, azərbaycanlıların istənilən təzyiqinə tab gətirə biləcəklər. Bundan başqa, ermənilər əmin idilər ki, siyasi yolla məsələni kifayət qədər uzun müddətə yubatmaq olar. Amma göründüyü kimi, siyasi faktorlar işləmədi. A.İskəndəryanın sözlərinə görə, rəsmi İrəvan yeni döyüş standartlarını kifayət qədər qiymətləndirmədi. Erməni ekspert səbəblərin sırasına Ermənistandakı daxili siyasi böhranı da əlavə edir.

Erməni hərbi ekspert Hayk Xaçikyanın fikrincə, 2020-ci ildəki müharibədən sonra əminliklə demək olar ki, Aprel döyüşləri daha böyük müharibənin başlanğıcı oldu: "Ermənistanda da Aprel döyüşlərindən sonra başa düşdülər ki, düşmən bununla məhdudlaşmayacaq. Onun sözlərinə, Aprel döyüşləri 2020-ci ilin payız müharibəsi ilə müqayisədə miqyasına görə daha kiçik idi. Amma Aprel döyüşlərindən sonra Azərbaycan hərbi rəhbərliyi öz taktikasında dəyişikliklər etdi.

Xatırladaq ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri bütün cəbhə boyu düşmən tərəfindən intensiv atəşə tutulmuşdu. Nəticədə aprelin 2-dən 5-dək ermənilər təmas xəttində silahlı təxribatlar həyata keçirmişdilər. Döyüşlər zamanı Azərbaycan Ordusu ermənilərin mövqelərinə güclü cavab zərbələri endirmişdi. Əks-hücum nəticəsində 2000 hektardan çox ərazi azad edilmiş və geniş sahə əməliyyat nəzarətinə götürülmüşdü. Goranboy rayonu və Naftalan şəhəri üçün təhlükə yarada biləcək Talış kəndi yaxınlığındakı yüksəkliklər, həmçinin Seysulan məntəqəsi düşmən qüvvələrindən təmizlənmişdi. Horadiz şəhərinin düşməndən qorunması üçün Füzuli rayonu istiqamətində strateji əhəmiyyət kəsb edən Lələtəpə yüksəkliyi də Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçmişdi. Bu döyüşlər nəticəsində 320 erməni məhv edilmiş, 500-dən çoxu yaralanmışdı.

Bir sözlə, dördgünlük Aprel döyüşləri təkcə savaş meydanında deyil, bütövlükdə, Azərbaycan üçün uğurlu oldu. Düşmənin məğlubiyyəti onun əhalisini ayıltdı, siyasətçiləri və ekspertləri əmin etdi ki, Ermənistan silahlı qüvvələri yalnız kağız üzərində güclü və yenilməzdir. Ermənilər Aprel döyüşlərinin, eləcə də 44 günlük müharibədə sarsıdıcı məğlubiyyətin acılarını heç zaman unutmayacaqlar. Hər iki əlamətdar hadisə onlara bir dərs oldu ki, başqasına məxsus olanları ələ keçirib rahat yaşamaq mümkün deyil.

**S.ELAY, "Xalq qəzeti"**

Texnologiya

# Süni intellekt – inkişaf, yoxsa işsizlik?

**İnsan məntiqini maşınlarda tətbiq etmək məqsədi daşıyan, eyni zamanda, intellektin araşdırılması kimi də başa düşülən süni intellekt dünyanı düşündürən əsas məsələlərdəndir. Müasir həyatımızda, demək olar ki, hər şeyin daha sürətli və daha səmərəli olmasının ən mühüm səbəblərindən biri də bununla bağlıdır.**



Bu sahədə aparılan tədqiqatlar kompüter elmləri, psixologiya, fəlsəfə, linqvistika, iqtisadiyyat, optimizasiya, məntiq nəzəriyyəsi və bir sıra başqa sahələrə əsaslanır. Bu sahənin inkişafı ilə insan kimi düşünən, həmçinin qərarlar qəbul edə bilən texniki qurğuların yaradılması, eyni zamanda, insan məntiqinin maşınlarda tətbiqi nəzərdə tutulur. Bütün əqli əməliyyatları insanlar kimi icra edə bilən intellektual proqram, sistem və robotların yaradılması, şübhəsiz, çox vaxt tələb edən məsələlərin həllində böyük effekt verə bilər.

Qlobal iqtisadiyyata sıx inteqrasiya olunan və dünyadakı müasir trendlərdən kənar qalmayan Azərbaycan üçün bu texnologiyaların inkişaf etdirilməsi vacibdir. Ölkəmizdə bu sahədə kifayət qədər uğurlu beynəlxalq təcrübə mövcuddur və onlardan yararlanmaq xüsusilə əhəmiyyət kəsb edir.

**Technogen MMC və Shield Solution MMC-nin Təsisçisi, CISCO-nun həqiqi üzvü Fərrux Rəcəblinin dedikləri:**



– "Süni intellekt bu günümüz və gələcəyimiz üçün ən vacib texnologiyadır. O bizə hansı üstünlüyü verir? Vaxt itirmədən görmək istədiyimiz işləri tez bir zamanda icra edə bilirik. Axtarışa düşmürük, əlavə vəsait sərf etməyə ehtiyac qalmır. Bir düyməyə toxunmaqla, yaxud bir komanda verməklə görəcəyimiz işləri süni intellekt avadanlıqları, robotlar yerinə yetirə bilirlər. Bu gün bütün sektorlarda süni intellektlər inkişaf etdirilir. Qrafik dizayn, tərcümə, proqramlaşdırma, xidmətlər – hər yanda süni intellektdən istifadə olunur. Düzdür, onun Azərbaycanda istifadəsi o qədər də geniş yayılmayıb, çünki təkmilləşmə mərhələsindədir. Qısa zamanda ölkəmizdə də hər sektorda süni intellekt çalışacaq.

Süni intellektin, avtomatlaşdırmanın mənfi cəhəti də ondan ibarətdir ki, tətbiq olunması işçiyə olan tələbatı azaldacaq. İstər otellər, restoranlar şəbəkəsində, istərsə də digər xidmət sektorlarında, o cümlədən dövlət qurumlarında belə hallar ola bilər. Təbii ki, 5 insanın görə biləcəyi işi bir maşın görürsə, ondan istifadə olunacaq.

Əlbəttə, süni intellektin müsbət cəhətləri danılmazdır. ABŞ və Avropa ölkələrində ondan daha çox istifadə edilir. Bu ölkələrin təhsil sektorunda tətbiq edilməsini xüsusi vurğulamaq istəyirəm. Hansısa yeni layihənin, yeni standartın, texnologiyanın həmin sektorda test olunması və testlərdə tələbələrin iştirakı ilə bu layihənin daha tez təkmilləşdirməsinə imkan yaradır. Təhsil sektorunda süni intellekti tətbiq etmək üçün bir sıra nüanslar var. Dünya ölkələri bu tipdə olan layihələri, standartları çalışırlar ki, əvvəlcə təhsil sektorunda tətbiq etsinlər.

Azərbaycanda da hazırda bir neçə universitetdə süni intellekt üzərində iş gedir. Böyük ehtimalla, ölkəmizdə də onun ilk tətbiqi təhsil müəssisələrində olacaq".

Beləliklə, istənilən bir yeniliyin tətbiqində insanların ən böyük arzusu hər hansı sahədə insanları əvəz etmək yox, onların işini daha da səmərəli etmək, sürətləndirməklə yanaşı, həm də asanlaşdırmaq, işin icrasında dəqiqliyə nail olmaqdır. Məhz cəmiyyət də belə yenilikləri səbirsizliklə tətbiq edəcəyi anı gözləyir.

**Leyla QURBANOVA, "Xalq qəzeti"**

# Gədəbəyin məhsulu bol olarsa...

**Hamı deyir ki, Gədəbəyin kənd təsərrüfatı məhsullarının – kartofunun, almasının, yerkökünün, kələminin, balının... tayı-bərabəri yoxdur. Özü də bu deyilənlər təkcə gəlişi gözəl sözlər deyil. Maraq üçün gedin bazara, normal, əsl Gədəbəy kartofu tapa bilsəniz, demək çox şanslı insansınız. Bu dağ rayonunun məhsulları, necə deyərlər, əl-əl axtarılır. Hətta qiyməti digər yerlərin məhsullarından xeyli ucuz olsa belə.**



– Gədəbəyin torpağı, təbiəti əvəzsizdir, elə insanları da həddindən artıq zəhmətsevər adamlardır. Düzdür, tənbəllər də var, torpaqdan lazımınca istifadə etməyənlər də. Amma belələri azdır. Çalışırıq ki, çox yox, hətta 5-6 sot torpağı olan adama da kömək edək, problemləri ilə maraqlanaq, görək niyə bəziləri əkib-becərməyə meylli deyil...

Rayon icra hakimiyyətinin başçısı Orxan Mürsəlovla qısa söhbətimizdə dediyi bu sözlərdə böyük həqiqət var. Bu gün Gədəbəydə torpaq kəndlinin bir nömrəli dolanışıq yeridir. Keçən il rayon mərkəzindən bir qədər aralanmışdım ki, yol kənarındakı həyətlərin birində ciddi-cəhdlə yer belləyən bir nəfəri gördüm. Yaxınlaşıb tanış oldum. Öyrəndim ki, tarix müəllimidir, yenicə məktəbdən qayıdıb və həyətyanı kiçik torpaq sahəsində kartof toxumu əkməyə hazırlaşır. "Mən neçə illərdir bazara getmirəm, yeddi nəfər ailə üzvüm var, buradan götürdüyüm məhsul ilboyu bizə bəs edir" dedi.

Bəs problem nədədir ki, bəziləri kəndli olduğunu sanki unudub, adətən şəhərə xas işlər üçün rayon icra hakimiyyətinə, digər təşkilatlara üz tutur, bəzən də asan iş axtarır? Bəri başdan qeyd edək ki, hər həftə rayon icra hakimiyyətində keçirilən qəbullarda, eləcə də səyyar qəbullarda qaldırılan problemlər, qarşıya çıxan çətinliklərin həlli istiqamətində geniş tədbirlər planı hazırlanıb və o ciddi nəzarət altındadır.

– Siz inanırsınız, bizim fermerlərlə, yəni iri torpaq mülkiyyətçiləri ilə problemlərimiz az olur, nəinki 6-7 sot torpaq sahəsinə malik sakinlərlə. Bəzən elə məsələ ilə bağlı müraciət edirlər ki, baxırsan çox asan yolla həll etmək mümkündür. Sadəcə torpaqla məşğul olmaq həvəsi yoxdur, nəyisə bəhanə gətirərək iş görmək istəmir…

Bu sözləri isə rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Asif Nağıyev dedi. Sonra da əlavə etdi ki, Mərkəz hamı ilə, fermerlərlə, digər əlaqədar təşkilatlarla əlaqəli çalışır. Əgər belə olmasa Gədəbəydə məhsul ildən-ilə azalar, adamların da əli işdən soyuyar. Təbii ki, problemlər var. Məsələn, rayonun iqtisadiyyatının əsasını təşkil edək kartofçuluqda bugünkü vəziyyət bizi tam qane etmir. Biz heç cür razılaşa bilmərik ki, bir vaxtlar ildə 200 min ton kartof istehsal edən rayonda indi bu rəqəm 125 min tona düşüb. Bir sıra məşhur sortlar – "Ağçiçək", "Telman" kartofları tezliklə tamamilə aradan çıxa bilər. Onların normal yetişdirilməsi xeyli çətinləşib. Çünki lazımi mineral gübrələr çatışmır, ya da çox bahadır...

Direktora xatırlatdıq ki, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun alimləri tərəfindən müasir seleksiya yolu ilə yeni yaradılan Uğur, Çənlibel, Vaqif və Turan kartof sortlarının Gədəbəy rayonunun Slavyanka kəndi ərazisində nümayiş əkinləri aparılmışdı, bəs nəticəsi nə oldu? Dedi ki, bu dörd yeni sort həm dəmyə, həm də suvarılma şəraiti olan bölgələr üçün əlverişlidir. Eyni zamanda, əkin dövriyyəsində olan mövcud sortlardan məhsuldarlığı 30-40 faiz daha çoxdur. Hazırda həmin sortların rayonlaşdırılaraq toxumçuluğun təşkil olunması üzərində iş gedir.

Yeri gəlmişkən, Gədəbəydə istənilən kənd təsərrüfatı məhsulunun dəmyə şəraitində yetişdirilməsi mümkün olduğu üçün suvarma problemi yoxdur. Lakin hazırda rayonda 180 hektar suvarılan ərazi var ki, adamlar çətinliklərlə üzləşirlər. Bu ərazidə azı iki artezian quyusuna ehtiyac var…

Gədəbəydə ilkin emal müəssisələrinə də ehtiyac çoxdur. Xüsusilə gön-dəri, yunun ilkin emalı müəssisələrinin olmaması hər il tonlarla məhsulun az qala çölə atılması ilə nəticələnir. Keçən il rayonda 218 min 692 baş xırdabuynuzlu mal olub və hesablamalara görə bu heyvanlardan yarım milyon tona yaxın yun qırxılıb. Amma hanı?- Hamısı dağılıb gedib, çölə atılıb. Hara aparsınlar, kimə satsınlar? Halbuki emal müəssisəsi olsaydı, həm heyvandarlıqla məşğul olanlar, həm də rayonun özü xeyli pul qazana bilərdi.

"Aqroserviz" də yoxdur. Əslində, 2017-ci ilə kimi Gədəbəydə adıçəkilən servizin filialı olub. Niyə bağlayıblar, niyə 5-6 ildir yoxdur, heç kəs bilmir.

Yüksək keyfiyyətli toxumların, gübrələrin alınıb gətirilməsində də bir sıra maneələr aradan qaldırılmalıdır. Bu işlər ayrı-ayrı sahibkarlara deyil, mərkəzləşdirilmiş qaydada, yeni dövlət səviyyəsində həll olunmalıdır. Kimsə gedib Rusiyanın hansısa bir vilayətindən toxumluq kartof gətirirsə, təkcə ona ümid bağlanmamalıdır. Özü də bu sortların bir çoxunun mənşəyi tam öyrənilmir, lazımi nəzarət yoxdur, yerli şəraitdə yetişdirilməsi bəzən nəzərə alınmır və sair.

Gübrə satışı da onun kimi. Bir qədər gözüaçıq fermerdirsə, hardan oldu, tapıb gətirəcək. Bəs qalanları? Nə tapılır, nə ziyanvericilərə qarşı lazımi təsirə malik deyil, nə də qiyməti münasibdir.

...Artıq 2023-cü ilin üçüncü ayı başa çatır. Bu il Gədəbəydə əvvəlki illərdən daha çox məhsul əldə etmək barədə düşünürlər. Rayon icra hakimiyyətinin rəhbərliyi tez-tez fermerlərlə görüşür, onların toplantılarını keçirir, seminarlar, digər tədbirlər təşkil edirlər. Şübhəsiz, adamları maraqlandırmaq, problemlərinin həllində yardımçı olmaq öz təsirini göstərəcəkdir. İndiyədək 3 min 661 hektar sahədə şum qaldırılmış, 3 min 288 hektar sahədə payızlıq səpin işləri aparılmış, 3 min 500 nəfər fermer 2 min 867 hektar sahəyə payızlıq əkinini başa çatdırıb.

Rəqəmlərlə sizi yormaq istəmirəm. Amma onu da nəzərə almaq lazımdır ki, hər rəqəmin arxasında minlərlə gədəbəylinin alın təri dayanır. Gərək bunu unutmayaq. Elə edək ki, Gədəbəyin məhsulu bol olsun, dadlı olsun, keyfiyyətli olsun... Məhsul ki, bol oldu, demək, bu ucqar dağ rayonu daha firavan yaşayacaq. Bu firavanlıq təkcə Gədəbəydən və gədəbəylilərdən asılı deyil. Bir sıra nazirliklərin və baş idarələrin, şirkətlərin rəhbərləri yay aylarında gəlib buz kimi bulaqlardan su içib "ox ay..." deyərkən gərək sadə gədəbəylini, torpaqla əlləşən kəndlini, fermeri unutmasın, onların problemləri ilə maraqlansın...

**Hamlet QASIMOV, "Xalq qəzeti"nin bölgə müxbiri**



# “Zəngəzur ideoloqu”nun uğursuz canfəşanlığı

**İran millətçi rejimi tarixi, dini-mədəni ortaqlıq daşıdığı şimal qonşusuna qarşı düşmənçilik niyyətlərini getdikcə daha aşkar və geniş nümayiş etdirir. Hakim mollakratiyanın vicdanını itirmiş ideoloqlarından olan Həqiqətpur adlı birisi ağalarının Azərbaycanla bağlı əndazəni aşmış təhdidlərinə haqq qazandırmaq məqsədi ilə son günlərdə, “mötəbər” və “obyektiv” ekspert rolunda çıxış edib. Bununla bağlı iranşünas alim, professor Vidadi Mustafayev redaksiyamıza açıqlamasında bildirdi:**



–Yalanı gözün içinə açıq söyləməyi bacaranlardan biri olan Həqiqətpur fars elitası sıralarına daxil olub, orada qalmaq arzusu ilə yanan, lakin etibar edilməyən, keçmiş SEPAH zabitidir. Sonradan siyasətə üz tutan, mənsub olduğu xalqa xəyanət etsə də, ağalarına yaltaqlansa da yenidən inam və etibar qazanmayan bu uğursuz məxluq indi də özünü hakimiyyətə Qafqaz regionu üzrə ekspert kimi sırımağa çalışır. O, hakim rejimin Zəngəzur xofuna haqq qazandırmaqla itirilmiş nüfuzunu bərpa etmək üçün çürük filosofluğa qapılıb. Bu başabəla ekspert redaksiya heyəti özü kimilərdən ibarət olan irticaçı “anaj” saytına müsahibəsində İranın Zəngəzur dəhlizinə qarşı düşmən və qərəzli münasibətinə ədalətlilik donu geydirmək üçün deyir ki, “Zəngəzur dəhlizi İsrailin marağına xidmət edir”.

Lakin bu əldədüzəltmə “qafqazşünas” həmin qənaəti ilə kifayətlənməyib bir az da irəli gedir, Zəngəzur dəhlizi ilə bağlı “NATO təhlükəsi” barədə də canfəşanlıq edir: “Hansı sağlam düşüncə NATO-nun ayağının bizim sərhəd zolağımıza açılmasına dözə bilər?” Yəni İran Türkiyənin Azərbaycanla sərhəddən NATO üzvü Türkiyənin sərbəst keçməsinə dözə bilməz.

Bu ekspertin sağlam düşüncə deyil, azacıq bilik sahibi olması da şübhə doğurur. O, İranın Zəngəzur dəhlizinə qarşı çıxmasını, bir tərəfdən, İsraillə bağlayarkən bu ölkənin bölgədən nə qədər uzaqda olduğunu anlamadığı kimi, digər tərəfdən, Türkiyənin İranın Azərbaycanla sərhədindən keçəcəyini təhlükə sayarkən də bu dövlətlə tarixi qonşuluqlarının mövcudluğunu unudur.

**Müsahibimiz sonda qeyd etdi ki, kökü tarixdən gələn, dünyaya yeni bir qapı açan layihənin “gərəksizliyini sübut etmək” heç kəsə müyəssər deyil:**

–Tarixdən və coğrafiyadan adi savadı olmayan birisi ekspert iddiası ilə qlobal siyasətə baş qoşub cəfəng və gülüş doğuran fikir söyləyəndə bilməli idi ki, artıq onun ölkəsi 71 ildən çoxdur ki, NATO-nun (1952-ci ildən) ən güclü ölkələrindən olan Türkiyə ilə qonşudur. Özü də bu qonşuluq Zəngəzur dəhlizi kimi kiçik (40 km) sərhəd xəttini deyil, çox uzun bir zolağı (534 km) əhatə edir. O ki, qaldı İranının Türkiyə – İsrail əməkdaşlığından çəkinməsinə, xoflanmasına, millətçi-molla rejimi heç vaxt bu ölkələrin yaxın-uzaqlığına etiraz etməyib.

O ki, qaldı özünü həqiqətpərəst kimi göstərən Həqiqətpurun əsassız iddialarına, bu zavallı Zəngəzur dəhlizinin açılmasından qorxan ağalarına xoş gəlmək üçün öz dayaz ağlı ilə nəsə toqquşdurmaq istəyib. Lakin o anlamır ki, Zəngəzur dəhlizi keçmişdə mövcud olmuş bir dünya yoludur və onun yenidən açılması İrandan asılı deyil. Rejimin dayağı olan SEPAH-dan qovulmuş birisinin bu məsələlərdə bazarlıq etmək həvəsinə düşməsi isə mənasız cəhddir.

**Hazırladı:**
**T.RÜSTƏMLİ, “Xalq qəzeti”**



# SEPAH-ın canı Xameneinin əlindədir

**“Biz SEPAH-dan danışanda onu təhlükəsizlik qüvvəsi, kəşfiyyat və dövlət qurumu modelində bir təşkilat olaraq tanıyırıq. Lakin o, bunlardan daha üstün bir qurumdur. Yəni, Xameneinin yanında dayanan ən güclü orqandır”.**

**Azərbaycan Demokrat Firqəsi ABŞ Komitəsinin məsul şəxsi Rəhim Şahbazi hakerlər tərəfindən ələ keçirilən gizli sənədlə bağlı mediaya bu açıqlamasının davamında bildirib ki, Xameneinin hakimiyyəti davam etdikcə SEPAH-ın bölünməsi mümkün deyil:**

–Xamenei onlara çox inanır, inqilab keşikçiləri də göstərişləri birbaşa ondan alırlar. SEPAH-da rəhbərliyə qarşı olan müxalif qüvvələr var. Gizli görüşdə toplaşanlar da bununla bağlı öz fikirlərini bildiriblər. Xameneini özündən sonra ölkəni kimin idarə edəcəyi sualı daha çox narahat edir. O, SEPAH daxilindəki müxalif qüvvələrə çox da güc sərf etmir, yaxud da onları görməzliyə vurur. Lakin tədbirini də əldən vermir.

**Şahbazi onu da vurğulayıb ki, hakimiyyət Azərbaycan türklərindən ibarət olan SEPAH və “Bəsic”dəki qüvvələrə bir o qədər də etibar etmir:** “Təbrizdəki Ləşkəri-Aşura SEPAH-ın bölmələrindən biridir. Lakin rejim Şimali Azərbaycan sərhədini türklərdən ibarət olan SEPAH qüvvələrinə etibar etmir. O bölgəyə fars məntəqələrindən SEPAH qüvvələri gətirməyə çalışır. Odur ki, SEPAH-da parçalanma olarsa, bundan gələcəkdə Azərbaycanın xeyrinə də yararlanmaq olar. SEPAH-ın parçalanmış qolu elə millətimizin mənafeyini qoruyacaq və dəstək verən qüvvələrdən olacaq”.

**Rəhim Şahbazi özünü müxalifət hesab edən Rza Pəhləvinin də SEPAH-ın imkanlarından yararlanmaq istədiyini diqqətə çatdırıb:** “Rza Pəhləvi danışıqlarında qeyd edir ki, İranın gələcəyində SEPAH-ı tamamilə ləğv etmək olmaz. Onların içində çox yaxşı qüvvələr var və heç də hamısı pis deyil. O, əsl hədəfini ortaya qoyaraq SEPAH-la fikir alış-verişi edib. Bir növ, demək istəyib ki, sizi tamam aradan götürmək niyyətimiz yoxdur. Pəhləvi hazırkı rejimin gedəcəyi, özünün hakimiyyətə gələcəyi halda SEPAH-ın mövcudluğunun onlara xeyir verəcəyini düşünür. Çünki ordunun, SEPAH-ın köməyi ilə ölkəni parçalanmadan və daxili savaşdan qurtarmaq olar. Lakin Pəhləvinin bu vədlərini SEPAH rahatlıqla qəbul etməz”.

# Güneydə türk dilində kitabların “soyqırımı”

**Güney Azərbaycanda 1946-cı il dekabr ayının 17-də baş verən mədəni soyqırım “yandırılmış kitablar günü” adı ilə xatırlanır. Dünya elmi informasiya dövriyəsində, eləcə də sosial və kulturoloji dairələrdə çox az xatırlanan bu hadisəni təhlil etməyə ehtiyac var.**

İran şahlıq rejiminin (Pəhləvilər sülaləsi) təzyiqindən və səriştəsizliyindən boğaza yığılmış xalq milli hakimiyyətini təsis etdi və milli dəyərlər çərçivəsində həyatını qurmağa başladı. İkinci dünya muharibəsinin nəticələri ilə dünyada və bölgədə daha da demokratikləşmə ümidində olan xalq 1946-cı ildə İran şah rejiminin hərbi hücumuna məruz qaldı.



Qısa müddətdə minlərlə insan öldürüldü, on minlərlə soydaşımız ölkədən mühacirət edildi, bir o qədəri də sürgün olundu. Bu barədə tarixi sənədlərdə çox sayda məlumat verilir.

Lakin 1946-cı ilin dekabr ayının 17-



də, Azərbaycanda demokratik dövlət quruluşunun dağıdılmasından 4 gün sonra İran rəsmi dairələri kütləvi şəkildə kitab məhsullarının yandırılması aktları keçirməyə başladı. Azərbaycan dilində bütün növ kitablar, bədii ədəbiyyat, məktəb dərslikləri, mətbuat nümunələri, üzərində Azərbaycan dilində yazılmış hər bir kağız, sənəd yandırıldı. Bu işi rəsmi dövlət orqanları nəinki gizli etmirdi, hətta kütləvi tədbirlər keçirilirdi, məktəblərdə kiçik yaşlı uşaqları öz ana dilində olan kitablarını gətirməyə və kütləvi mərasimlərdə yandırmağa məcbur edirdilər. Bu barədə məlumata İranın rəsmi mətbuat səhifələrində, Azərbaycanın görkəmli elm və mədəniyyət xadilmərinin xatirələrində çox rast gəlirik.

1947–1949-cu illərdə dünyanın siyasi güc mərkəzləri yeni dünya “xəritəsinin bölünməsi” ilə məşğul olduğundan bu mədəni soyqırımı beynəlxalq mətbuatda bir o qədər də işıqlandırılmadı. 1947-ci ilin Pris sülh konfransı da, əslində, dünyada sülh yaratmaq deyil, “pay bölgüsü” ilə məşğul oldu.

Təbrizdə çıxan “Azərbadəkan”(İran) qazeti 13 avqust tarixli baş məqaləsində yazırdı: “Kəndlilərin vəziyyəti olduqca pisdir, bütün Azərbaycanı dilənçilik və bədbəxtlik bürümüşdür... Hər gün və hər saat kəndlərdən şəhərə (Təbrizə) dəstə-dəstə yoxsul, ac, çılpaq və xəstə kişilər, qadınlar, uşaqlar və gənclər gəlməkdədir. Bunlar işsizlərin və səfillərin sayını daha da artırırlar”. Bu mənzərə göstərirdi ki, milli kitaba yönəlmiş düşmənçilik dövlətin məqsədyönlü fəaliyyətin nəticəsi olaraq baş verirdi.

İran Xalq Partiyası (“Hizbi Tudə”) Mərkəzi Komitəsinin orqanı olan “Mərdom” qəzetində 1949-cu il fevral ayının 3-də Abbas Cəfərinin “Azərbaycan xalqımızın mübarizəsinin ön səngəridir” adlı məqalədə deyilirdi: “Abbasi xəlifələrinin qanlı hökmranlığı əleyhinə vuruş meydanında, Qacar istibdadına qarşı döyüş səhnəsində, istismarçıların mənfur ağalığı əleyhinə mübarizənin hər zaman ön səngərində Azərbaycanı gördük. Babək, Səttarxan və doktor Ərani Azərbaycanın şanlı oğullarıdırlar.” Siyasi mətbuatda verilən bu qiymətləndirmə İran səltənət rejimini də narahat edirdi. Güneydə milli iradənin sındırılması məqsədi ilə İran rejimi fəaliyyətini genişləndirirdi.

1949-cu il oktyabrın 16-da Y.Kursanov və A.Əfəndiyevin Bakıda nəşr edilən “Kommunist” (indiki “Xalq qəzeti”) qəzetində verilmiş məqaləsində deyilirdi: “Yaşasın Pişəvəri!” çağırışları getdikcə daha gur səslənir. Bu, o deməkdir ki, Cənubi Azərbaycanda qısa bir müddət ərzində qalib gəlmiş xalq demokratiyası bütün ölkəyə nicat yolunu göstərdi. Bu ölkənin hazırki hakimləri, yalnız demokratiya yoluna çıxmaqla dəhşətli gələcəkdən yaxa qurtarmağın mümükün olduğu fikrini zavallı xalqın şüurundan heç bir terrorla çıxara bilməyəcəklər.

Təbrizin Firdovsi gimnaziyasında kitabların yandırılması ilə bağlı Tehranda çıxan “İttilaat” qəzetinin xəbərində deyilirdi: “Təbrizdən olan xüsusi nümayəndəmizin teleqrafı: “Türk dilində kitablar yandırıldı”. Firdovsi gimaziyasında şagirdlər və təbrizlilər Rezaye “qəhrəmanı”, polkovnik Zənganeyə təşəkkür etdilər və öz duyğularını ifadə etdilər. Dünən insanlar bələdiyyənin qarşısında türk kitablarını yandırdılar”.

“Ataş” qəzeti Təbriz Bələdiyyə Meydanında yanan kitablardan xəbər verir: “Bu gün bir çox sakinlərin və paytaxtın mətbuat xəbərçilərinin, ordu zabitlərinin iştirakı ilə Bələdiyyənin qarşısındakı meydanda tələbələr tərəfindən “bayram” keçirildi. Dövlət məmurları artıq meydanın ortasında böyük bir atəş yandırdılar və bədnam Demokratiya firqəsinin çap etdiyi, uşaqlara zorla öyrətmək istədiyi çoxlu sayda klassik türk kitablarını “alqışlar” və “yaşasın şah” və “Yaşasın cənab Əşrəf Qavam əl-Saltani” və “Azərbaycanın düşmənləri məhv olsun” və “İran xainləri məhv olsun” şüarları ilə bütün kitabları yandırdı. Sonra isə bədnam xain liderlərinin və muzdlularının fotoları da yandırıldı. Sonra müxbirlər danışdı və cənab Əhməd Şare şeirlər söylədi və Təbriz şagirdlərinin “şənliyi” saat birdə sona çatdı”.

Hadisələrin bir iştirakçısı öz xatirələrində yazırdı: “21 Azərdən bir həftə keçdi, məktəbə getdik. 21 Azər olan məktəbin adının yenidən 15 Bəhmənə dəyişdirildiyini gördüm. Yeni direktor gəldi. Uşaqlar cənab Rəfəti götürdüklərini dedilər. Müxaliflər məğlub oldular, Pişəvəri qaçdı və dilini də özü ilə apardı! İndi əsərlərinin qalıqlarını məhv etmək üçün birlikdə gedirik. Sıraya düzülüb Mirzə Hüseyni Vaez xiyabanı kimi tanınan dar xiyabandan keçdik. Lilava Keçid Meydanında yanğın alovlandı. Digər məktəb uşaqları da gəldi. Kitabları bir-bir atəşə atdıq. Yeni direktorumuz kitabını alov içinə atan hər bir uşağa şirniyyatlar verirdi. Digər məktəb direktorları da uşaqların kitablarını gizlətməməsi üçün diqqət edirdilər.

“Kitab yandırma” mərasimindən sonra o gün məktəbi bağladılar ki, evə gedin, sabah gələrsiz. Atam evdə əsəbləşmişdi və deyirdi: “Kitabın günahı nə idi. Qəzetlər türk dilini Pişəvərinin dili adlandıraraq lağa qoyurlar, qonşu dili deyirlər. Dilin Pişəvərilə nə əlaqəsi var? Biz bu dildə nəsillər boyu danışmamışıqmı?”. Anam dedi: “Düşünürdülər ki, İranda, hətta dünyada, yalnız bir dil var”.

Başqa bir xatirədə deyilirdi: “On minlərlə insan Demokrat Partiyası ilə əməkdaşlıq ittihamı ilə İranın cənubuna deportasiya edildi. Çox sayda insan, məcburi məhkəmələrində edama və ağır cəzalara məhkum edildi. Təbrizdə bir neçə həftədə, dar ağacları qoyulmuşdu və hər səhər bir neçə qurbanın cansız cəsədləri dar ağacının üstünə daşınırdı və bu ayaqların altında milli təhsil tərəfindən tərtib edilmiş və nəşr olunan Azərbaycan dilində dərsliklər yandırılırdı”.

**Pərviz KAZİMİ,**
**Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru**



# İranda hər 14 saatda bir nəfər edam edilir

**“İranın Açıq Məlumat Bazası” araşdırma mərkəzi bu yaxınlarda dərc etdiyi hesabatda ölkədə cari ilin qışından bəri orta göstərici ilə müqayisədə edamların keçən 15 ilə görə 24 faiz artdığını və 2023-cü ildə “hər 14 saatda bir nəfərin edam edildiyini” açıqlayıb.**

Bu hesabatda İslam Respublikasında 2008-2022-ci illər arasında hər 17 saatda bir edam olduğu bildirilib: “Bu ilin ilk 65 günündə İranda 113 nəfər edam edilib və bu, son 8 ildə ən yüksək göstəricidir”.

Bu hesabatda dərc olunan qrafiklər göstərir ki, ən çox edamlar müvafiq olaraq Tehran, Əlborz, Batı Azərbaycan, Rəzəvi Xorasan və Sistan-Bəluçistanda olub.

İnsan haqları təşkilatları, o cümlədən “Amnesty International” bildirir ki, İran edam statistikasına görə, Çindən sonra dünyada ikinci ölkədir.

İran İnsan Haqları Təşkilatı ayrıca 2023-cü ildə edamların sayını 137 nəfər olaraq açıqlayıb. İran “qətl”, “narkotik”, “silahlı soyğunçuluq” kimi cinayətlərə görə, adi məhbuslara, ayrıca bəzi siyasi məhbuslara “müharibə”, “yer üzündə fəsad” kimi ittihamlarla hələ də edam hökmü verən azsaylı ölkələrdən biridir.

Ötən illərdə İran hökumətinin təhlükəsizlik qurumları bir sıra siyasi fəalları və rejimin əleyhdarlarını, o cümlədən Ruhullah Zəm, Cəmşid Şarmehed və Həbib Osivədi qonşu ölkələrdən oğurlayaraq ölkəyə gətirib. İran–İsveç ikili vətəndaşı Həbib Osivədin və İran–Almaniya ikili vətəndaşı Cəmşid Şarməhedin edam hökmləri son günlər ədliyyə tərəfindən açıqlanıb.

İslam Respublikasının məhkəmə orqanları tələsik mühakimələrin ardınca 2022–2023-cü il ümumi etiraz aksiyalarında məhbuslardan dördünü edam edib və ədalətsiz prosesdə mühakimə olunan 6 ərəb də daxil olmaqla, onlarla siyasi məhbus hələ də edam riski ilə üz-üzədir.

***Rəhman GƏNCƏLİ***

# Zəncanlı idmançının qara günləri

**Güney Azərbaycanın Zəncan şəhərindən olan alpinist və qayaya dırmanma üzrə çempion Elnaz Rikabinin ölkədən çıxışına qadağa qoyulub.**

Azerbaycan-ruznamesi.org xəbər verir ki, bu barədə İranın Alpinizm Federasiyasının rəhbəri Rza Zarei məlumat yayıb.

Elnaz Rikabi ötən il Cənubi Koreyanın paytaxtı Seulda keçirilən Asiya çempionatında hicabsız çıxış etdiyi üçün İrana qayıtdıqdan sonra təh-




lükəsizlik məmurlarının basqıları ilə üzləşib.

***Hüseyn RƏHİMZADƏ***

# Qərbin ikili standartları rus əsgərlərinin çəkmələrində

## “Mən bunu etsəm də, siz eləməyin” prinsipi nə qədər gülünc və absurddur

**Kütləvi informasiya vasitələri xəbər verirlər ki, Nyu-Yorkdakı İkinci Dünya müharibəsi muzeyində “Çarmıxa çəkilmiş Ukrayna” adlı sərgi nümayiş etdirilir. Məlum olduğu kimi, əsas məqsəd Rusiya Federasiyasının 2014-cü ildən bəri apardığı xarici siyasətin tənqid olunması və Ukraynaya dəstək verilməsidir. Təbii ki, bu, Birləşmiş Ştatların daxili işlərinə aid olan məsələdir və ona görə də biz həmin sərginin açılmasına münasibət bildirmək istəmirik. Ancaq o sərgi haqqında yayılan məlumatlarda bizə qəribə görünən bir məqam da var.**

Söhbət ondan gedir ki, Azərbaycan dövləti faşist, işğalçı, terrorçu, talançı və qarətçi Ermənistan üzərindəki şanlı Qələbəsindən sonra Bakıda “Hərbi Qənimətlər Parkı” adlı muzey-sərgi kompleksi yaratmış, orada eksponat kimi düşmənin əlindən aldığımız və ya erməni fərarilərinin qoyub qaçdığı silah, sursat, texnika, hərbi vasitələr, geyim əşyaları və əsgər dəbilqələri düzülmüşdü.



Bu, bizim tam hüququmuz idi. Çünki öz havadarlarına güvənən Ermənistan dövləti 30 ilə yaxın müddət ərzində bizim on minlərlə soydaşımızı qətlə yetirmiş, ərazilərimizin 20 faizini, sözün həqiqi mənasında, viranəyə çevirmişdi. Sonra biz onların ordusunu məhv etsək də, dövlətlərini çökdürsək də, minlərlə şəhid anasının ürəyindəki yaranın sağaldılması mümkün deyildi. Məhz şəhid analarına təsəlli vermək üçün düşmənin həqiqətən məğlub edildiyini sübut etməli idik. Həmin parkı yaratmaqda da məqsədimiz bu idi.

Ancaq park açılar-açılmaz rəsmi Vaşinqton başda olmaqla, dünyanın bir çox paytaxtlarından etiraz səsləri ucaldı ki, oradakı eksponatlar erməni xalqının heysiyyatına toxunur. Fransa, Hollandiya, ABŞ... mətbuatı Azərbaycan dövlətinin həmin layihəsini birmənalı olaraq “antibəşəri addım” adlandırmış, parkın bağlanmasını və ya əksər eksponatların yığışdırılmasını tələb etmişdi. Həmin bəyanatları verən riyakarlar anlamırdılar ki, Xocalıda törədilən vəhşiliklər də, dağıdılan məscidlər, muzeylər, yox edilən məktəblər, tarixi-mədəni abidələr, təhqir olunan qadınlar, öldürülən körpələr də bizim heysiyyatımıza toxunmuşdu. Şərəfsizcəsinə etiraz edirdilər ki, erməni zabitlərin səngərə zəncirlədiyi öz fərari əsgərlərinin manekenləri tamaşaçılara göstərilməsin.

Hətta, iş o yerə çatdı ki, mövcudluğu dövründə həyasızlıqdan başqa heç bir milli keyfiyyət nümayiş etdirə bilməyən ermənilər Hərbi Qənimətlər Parkına görə Azərbaycanı Beynəlxalq Məhkəməyə də verdilər. Yadımdadır, 2021-ci il dekabrın 8-də Xarici işlər nazirinin müavini Elnur Məmmədov Ermənistanın Azərbaycana qarşı iddiasının təmin olunmaması ilə bağlı keçirdiyi mətbuat konfransında demişdi ki, Ermənistan son aylarda bəzi ölkələrin parlamentində ermənipərəst deputatların vasitəsilə Bakı şəhərində açılmış Hərbi Qənimətlər Parkının erməni millətinə qarşı etnik nifrətin təzahürü olduğunu bildirmişdi.

Nazir müavininin dediyinə görə, düşmən tərəf, hətta müxtəlif səviyyələrdə qərəzli bəyanatların verilməsinə də nail olmuşdu. Lakin Azərbaycan bu məsələyə sırf hüquqi prizmadan yanaşaraq, məhkəmədə parkın mahiyyət və məqsədini ətraflı izah edə bildi. Nəticədə Beynəlxalq Ədalət Məhkəməsi 2021-ci il dekabrın 7-də Ermənistanın vəsatətini rədd etdi. Yəni Bakıdakı Hərbi Qənimətlər Parkının bağlanması tələbi düşmənin digər arzuları kimi, gorbagor oldu. Məhkəmə ümumi şəkildə irqi ayrı-seçkiliyin qarşısının alınması üçün konvensiya üzrə Azərbaycanın öhdəliklərini qeyd edib. Bununla da Ermənistanın məhkəmədə almağa çalışdığı və məhz siyasi xal qazanmağa hədəflənmiş vəsatəti də uğursuzluğa uğradı.

Bütün bunlar dünyanın gözü qabağında olub. Elə ABŞ təmsilçilərinin həlak olmuş rus əsgərlərinin çəkmələrini məhz Nyu-Yorkda, Rusiya simvolu olan beşguşəli ulduzun içərisində nümayiş etdirilməsi də dünyanın gözü qabağında sərgilənən ikili standart və riyakarlıq nümunəsidir.

Mətbuat təmsilçiləri bu məqamda Qərbin ikili standartlarının göstəricisi olan başqa bir faktı da yada salırlar. Belə ki, Bakıdakı Hərbi Qənimətlər Parkı açılandan sonra bütün işini-gücünü buraxıb Azərbaycana qarşı ittihamlar irəli sürməklə məşğul olan Avropa Parlamenti bəyanat vermişdi ki, həmin park “qəddarlıq nümunəsi olduğuna” görə dərhal bağlanmalıdır. Onlar unudurdular ki, Avropanın mərkəzində -- Fransadakı muzeylərdən birində müstəmləkəçiliyə qarşı mübarizə aparmış Əlcəzair ərəblərinin onlarca kəllə sümüyü nümayiş etdirilir. Bu, ikili standart deyilsə, bəs onda nədir?

Sonda bir məsələni də qeyd edək. Bakıdakı Hərbi Qənimətlər parkı beynəlxalq aləmdəki işğalçı, terrorçu və təxribatçılara ibrət nümunəsidir ki, antibəşəri siyasətin, insanlığa yaraşmayan bəd əməllərin nəticəsi belə olur. Bəs fransızların nümayiş etdirdiyi kəllə sümüklərinin mənası nədir? Əlbəttə, o deməkdir ki, bizim siyasətimizi, hakimiyyətimizi qəbul etməyənlərin aqibəti belə olacaq.

Daha siz deyən kimi olmayacaq, cənablar! Dünya artıq yeni düzən prinsiplərinə doğru gedir. Sizin müstəmləkəçilik siyasətiniz də gorbagor olacaq, ikili siyasətiniz də. Yetər artıq, bəşəri dəyərləri ayaq altına atdığınız yetər! Bütün dünya artıq sizin ikili standartlarınızı lənətləyir!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

**Dünən Rusiya mənbələri Ukraynanın Baxmut şəhərinin rus qoşunlarının nəzarətinə keçdiyini bildirsə də, məlumat təsdiqini tapmayıb. “Euronews”in xəbərinə görə, Ukrayna Silahlı Qüvvələri bu barədəki məlumatı təkzib edib. Xəbərdə o da bildirilir ki, ukraynalı hərbçilər hələ də şəhərdə qalan dinc sakinləri təxliyə edirlər. Ukrayna CQ Şərq qruplaşmasının nümayəndəsi Sergey Çarevatı deyib ki, ölkə hərbçiləri şəhərin müdafiəsini davam etdirirlər.**

# Baxmut müdafiə olunur

Xatırladaq ki, bir gün əvvəl “Vaqner” Baxmutun hüquqi cəhətdən ələ keçdiyini, şəhər administrasiyasının binası üzərində isə Rusiya bayrağının qaldırıldığını bəyan edib. Bunun sübutu üçün gecə vaxtı çəkilmiş videomaterial nümayiş etdirilib. Ancaq binanın administrasiyaya aid olub-olmadığı aydın olmayıb.




Çerevatının sözlərinə görə, son sutka ərzində Rusiya qüvvələri 32 dəfə Baxmuta hücum həyata keçiriblər. Şəhərin özündə 26 toqquşma baş verib. 238 dəfə Ukrayna ordusunun mövqeləri reaktiv artilleriya atəşinə tutulub. Nəticədə rusların 90 hərbçisi və üç səhra silah anbarı məhv edilib: “Baxmut hələ ki, rəqibin əsas zərbələrinin, ilk növbədə, “Vaqner” döyüşçülərinin hədəfidir”.

Ukraynanın Baxmut uğrunda inadla mübarizə apardığını Ağ evin strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi də təsdiq edib: “Baxmut ukraynalılar üçün böyük əhəmiyyət kəsb edir və buna hörmət edirik, anlayırıq. Amma Ukrayna ordusunun Baxmutdan geri çəkilməsi də strateji baxımdan döyüşün dinamikasını dəyişməyəcək”.

Ukrayna Silahlı Qüvvələri Hava Qüvvələrinin komandanı Yuri İqnat isə Rusiyanın cəbhədə və Ukraynanın regionlarında sutkada 20 aviabomba atdığını bəyan edib: “Rəqibin aviasiyası işləyir. On kilometrlərlə (70 kilometrə qədər) uça bilən bombalardan istifadə edir. Təmas xəttində gündə 10-15, 20 bomba atılır”.

RF Müdafiə Nazirliyinin məlumatında isə qeyd edilir ki, Donetsk istiqamətində hücum zamanı 285 ukraynalı hərbçi və çoxlu hərbi texnika məhv edilib. Nazir Sergey Şoyqu isə Ukraynaya Qərbdən göndərilən xarici texnikaların rus ordusu tərəfindən həm daşınma prosesində, həm də döyüş mövqelərində məqsədyönlü şəkildə vurulduğunu bildirib. “Təkcə 59 ədəd M-777 artilleriya sistemi, 13 “Paladin” artilleriya qurğusu, 14 ədəd ABŞ istehsallı HIMARS qurğusu, eləcə də Polşa, Almaniya, Fransa və Çexiyadan göndərilmiş 30 özüyeriyən artilleriya qurğusu məhv edilib”, – deyə Şoyqu əavə edib.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

# Finlandiya NATO-nun 31-ci üzvü oldu

## Brüsseldə bununla bağlı təntənəli mərasim keçirilib

**Dünən NATO-nun Brüsseldəki mənzil-qərargahında Rusiyanın Avropada ən böyük quru sərhədləri olan dövlətlərdən biri Finlandiya Respublikası təntənəli surətdə quruma üzv qəbul olunub. Bu barədə BBC müxbirləri məlumat yayıb.**



Xəbərdə deyilir ki, əvvəlcə Finlandiyanın xarici işlər naziri Pekka Haavisto ölkəsinin alyansa qəbul ərizəsini və digər tələb olunan sənədləri ABŞ-ın Dövlət katibi Entoni Blinkenə təqdim edib.

Şimali Atlantika Alyansına (NATO) üzv ölkələrin xarici işlər nazirlərinin iştirakı ilə keçən tədbirə Finlandiya Prezidenti Sauli Niinisto da qatılıb. NATO-nun Baş katibi Yens Stoltenberq ali qonağı, eləcə də bütün tədbir iştirakçılarını salamlayıb.

Alyansın baş katibinin sözlərinə görə, “Finlandiyanın üzvlüyə qəbulu bu ölkəni daha güvənli və güclü edəcək”. Finlandiya Prezidenti, öz növbəsində, onun dövlətinə və xalqına göstərilən etimada görə təşəkkür edib və ölkəsinin nümunəvi NATO üzvü olacağına əminlik ifadə edib.

ABŞ-ın NATO-dakı nümayəndəsi Julian Smit deyib ki, “bu gün, həqiqətən çox əlamətdar bir gündür. Belə ki, Finlandiya Qərb dövlətləri və xalqları ilə ümumi dəyərləri paylaşan kifayət qədər güclü, nüfuzlu bir dövlətdir”. Xanım siyasətçi, həmçinin bildirib ki. gələn ilin iyulunda NATO-nun Litvada keçiriləcək sammitində İsveçin də alyansa üzv qəbul olunacağına böyük ümidlər bəsləyir.

Dünən Brüsseldə jurnalistlər qarşısında çıxış edən ABŞ-ın Dövlət katibi Entoni Blinken qeyd edib ki, baş verənlərə görə, bəlkə də yeganə haldır ki, ruslara, hətta bir “təşəkkür” düşür. Ona görə ki, onlar sanki Rusiyanın təcavüzü səbəbindən bunun baş verəcəyini əvvəlcədən görürdülər.

Xatırladaq ki, Finlandiyanın şərqdə Rusiya ilə 1340 kilometr (832 mil) uzunluğunda sərhədi var. Rəsmi Helsinki ötən ilin mayında, yəni Rusiyanın Ukraynaya təcavüzündən cəmi üç ay sonra İsveç ilə birlikdə NATO-ya daxil olmaq planını açıqlayıb.

Qeyd edək ki, alyansın Nizamnaməsinin 5-ci maddəsinə görə, qurumun hər hansı bir üzvünə hücum bütün alyansa təcavüz kimi dəyərləndirilir. Finlandiya sakinləri Rusiyanın militarist siyasətindən narahat olaraq NATO-ya üzv olmaq qərarına gəldilər. Belə ki, əhalinin 80 faizi Suomi (finlər öz vətənlərini belə adlandırır) ölkəsinin NATO-ya üzv olmasını dəstəkləyib.

Lakin İsveçin üzvlüyə qəbulu Türkiyə tərəfindən bloklanıb. Ankara hesab edir ki, Stokholm ölkə ərazisində kürd terrorçularına və tərəfdarlarına qeyri-qanuni surətdə sığınacaq verərək onları himayə edir.

Qeyd edək ki, Macarıstan da hələlik İsveçə bu məsələdə razılıq verməyib. Budapeşti İsveç rəsmilərinin Macarıstan hökumətinin başçısı Viktor Orbanı tez-tez avtoritar idarəçilikdə günahlandırması narazı salır.

Beləliklə, Finlandiya NATO-nun sayca 31-ci üzvüdür. Helsinki buna çox qısa müddətdə, cəmi on aya nail oldu. Bununla da, Rusiyanın NATO-ya üzv dövlətlər ilə birbaşa sərhədləri birdən-birə iki dəfə artıb.

Yeri gəlmişkən, dünən NATO-nun yaranmasının 74 illiyi tamam olub. Xatırladaq ki, alyans 1949-cu ildə “soyuq müharibə”nin ən qızğın dövründə sovet təhlükəsindən müdafiə məqsədilə təşkil olunub. O vaxtdan genişlənərək dünyanın ən böyük hərbi blokuna çevrilib.

Qeyd etmək lazımdır ki, Finlandiyanın NATO-ya üzv olması qurumun şərqə doğru genişlənməsinə kəskin etiraz edən rəsmi Moskva üçün heç də arzuolunan hadisə deyil. Prezident Vladimir Putin 2021-ci ilin fevralında Rusiya ordusunun Ukraynaya hücumundan əvvəl Qərb dövlətlərinə bu barədə dəfələrlə xəbərdarlıq edib, bu “səhv” addımdan çəkindirməyə çağırıb.

Bu günlərdə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Moskva Brüsseldə baş verənləri diqqətlə izləyir və NATO-nun şərqə doğru genişlənməsini öz milli maraqları üçün təhdid hesab edir.

İki gün əvvəl Rusiyanın xarici işlər nazirinin müavini Aleksandr Qruşko xəbərdarlıq etmişdi ki, NATO Finlandiyada yeni hərbi resurslar yerləşdirərsə, o zaman Rusiya özünün milli təhlükəsizliyini təmin etmək üçün “əlavə addımlar” atacaq. Bu ölkənin Belarusdakı səfiri Boris Qrızlov isə bildirib ki, Rusiya Belarusun qərbində taktiki nüvə raketləri yerləşdirmək niyyətindədir.

BBC şərhçisi qeyd edib ki, bu xəbər NATO üzvü olan Polşada və digər Şərqi Avropa dövlətlərində ciddi narahatlıq doğurub. Bununla bağlı NATO-nun Baş katibi Yens Stoltenberq deyib ki, hələlik Rusiya ərazisində nüvə silahlarının yerdəyişməsi müşahidə olunmayıb.

Brüsseldə NATO-ya üzv ölkələrin xarici işlər nazirləri ukraynalı həmkarları Dmitri Kuleba ilə görüşərək Kiyevi uzun müddət ərzində də müdafiə etməyə hazır olduqlarını bildiriblər. Macarıstanın etiraz etməsinə rəğmən, NATO-Ukrayna birgə komissiyasının iclası keçirilib və orada bir daha Ukraynaya dəstək ifadə olunub.

Sonda xatırladaq ki, 5,6 milyon əhalisi olan Finlandiya ərazisinə (338,4 min kvadratkilometr) görə Avropanın ən böyük ölkələrindən biridir. Burada təxminən, 179 minə yaxın böyük-kiçik ada, bir o qədər göl var. Finlandiya 1995-ci ildən Avropa İttifaqının üzvüdür, dörd il sonra isə avrozonaya qoşulub.

Maraqlı cəhətlərdən biri də odur ki, Finlandiyada təqribən 200 qəzet, 320 jurnal nəşr olunur. Finlər dünyada yaponlarla bərabər, ən çox qəzet oxuyan ölkədir.

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

# Rusiya sanksiyalara davam gətirir

**Qərbin sanksiya təşəbbüskarları Rusiya ilə ticarət və loqistika əlaqələrini qırdılar, ancaq Moskva iqtisadi sektorun dayanıqlığını təmin etməyi bacardı. Belə bir bəyanatla RF Prezidenti Vladimir Putin sanksiyalar şəraitində sənayenin inkişafı ilə bağlı iclasında bəyan edib. Məlumatı TASS verib.**



İqtisadi sektordakı sabitliyə toxunan Putin qeyd edib ki, Rusiya bütün səyləri və ehtiyatları Qərb ölkələrinin yaratdığı blokadanın aradan qaldırılmasına yönəldə bilib. Bir çox sahələrin yenidən qurulması xarici məhsulların yerli məhsullarla əvəzlənməsinə kömək edib.

Dövlət başçısı deyib: “Aktiv şəkildə idxal avadanlıqlarının dəyişdirilməsinə və proqramla təminata vəsait qoyduq, yeni güzəştli və layihəli maliyyələşmə mexanizmləri təbiq etdik”.

Prezident 2014-cü ildə embarqoya qarşı tədbirlər görüldüyünü və bunun doğru strategiya olduğunu xatırladıb. O, kənd təsərrüfatı məhsullarının idxalını azaltmaqla bağlı siyasətə toxunaraq qeyd edib ki, Rusiyanın öz məhsulları azad olmuş böyük bazara daxil olub: “Bunların keyfiyyəti isə Qərbin istənilən məhsulundan yaxşıdır”.

***“Xalq qəzeti”***

# Suriya üzrə dördtərəfli görüş

**Dünən Moskvada Türkiyə, Rusiya, İran və Bəşər Əsəd rejimi XİN başçıları müavinlərinin Suriya üzrə görüşü keçirilib. Görüşü Rusiyanın xarici işlər naziri Sergey Lavrov açıb. Məlumatı “Anadolu” verib.**

Türkiyə nümayəndə heyətinə ölkənin XİN başçısının müavini Burak Akçapar başçılıq edib. Rusiya tərəfini ölkə Prezidentinin Yaxın Şərq və Afrika ölkələri üzrə xüsusi nümayəndəsi Mixail Boqdanov, İranı XİN başçısının siyasi məsələr üzrə müavini Əli Əsgər Hacı, Əsəd rejimini xarici işlər nazirinin müavini Ayman Susan təmsil edib.

Ankaradakı diplomatik mənbələr bildiriblər ki, Moskva danışıqları XİN başçılarının dördtərəfli görüşü üçün baza yarada bilər. Görüşdə xarici işlər nazirlərinin görüşü üçün gündəliyi və əməkdaşlıq yollarını müzakirə ediblər. Danışıqlar mətbuat üçün qapalı rejimdə keçirilib.

Dünən, eyni zamanda, Rusiya XİN-in qəbul otağında Rusiya, Türkiyə və İran nümayəndə heyətləri arasında danışıqlar aparılıb.

***“Xalq qəzeti”***

# Media nümayəndələrimizin Daşkənd görüşləri

**Azərbaycan Respublikası Audiovizual Şuranın sədri İsmət Səttarovun rəhbərliyi ilə bir sıra media qurumları rəhbərlərinin daxil olduğu nümayəndə heyəti Özbəkistan Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin baş direktoru Asadjan Xocayevlə görüşüb.**



Danışıqlar zamanı Azərbaycanla Özbəkistan arasında bu sahədə əlaqələrin dərinləşdirilməsi, bir sıra layihələrin həyata keçirilməsi, ölkələrin aparıcı informasiya agentlikləri arasında təcrübə mübadiləsinin aparılması məsələləri diqqət mərkəzində olub.

Görüşdə Ermənistan işğalından azad edilən Azərbaycan torpaqlarında aparılan quruculuq işləri haqqında da məlumat verilib.

Nümayəndə heyətinin Özbəkistanın Kinematoqrafiya Agentliyinin baş direktoru Firdavs Abduhalikovla görüşündə bu sahədə əlaqələrin genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Azərbaycan və Özbəkistan kinematoqrafiyası sahəsində əməkdaşlıq, bu istiqamətdə birgə layihənin reallaşdırılması, hər il Özbəkistanda keçirilən ənənəvi "İpək Yolunun incisi" adlı Daşkənd Beynəlxalq Kino Festivalında Azərbaycanın təmsil olunması məsələləri müzakirə edilib.

Görüşdə Azərbaycan filmlərinin Özbəkistan, özbək filmlərinin isə Azərbaycanın televiziya kanallarında nümayiş etdirilməsi istiqamətində də razılıq əldə olunub.

Sonra qonaqlar üçün "Özbəkfilm"in pavilyonlarına ekskursiya təşkil olunub.

**Qulu KƏNGƏRLİ**

**Daşkənd**



# Həssas qrupların sosial müdafiəsinin əhatə dairəsi genişlənir

**Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı bu il də uğurla davam edəcək. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında söhbət gedib.**

Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə bağlı sosial dəstək tədbirlərinin əhatə dairəsinin yeni layihələrlə genişləndirilməkdə olduğunu çıxışında bildirən nazir Sahil Babayev qeyd edib ki, Vətən müharibəsindən sonra həmin insanların mənzillə təminatı proqramı beş dəfə genişlənib. Onlara postmüharibə dövründə 4500, keçən il 1500, ümumilikdə ötən dövrdə 13 mindən çox mənzil və fərdi evin orderi təqdim edilib. Bu il də şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Yaxın günlərdə həmin mənzil və fərdi evlərin verilməsinə başlanacaq.

Xatırladaq ki, onlayn satışı həyata keçirilən 1662 mənzildən artıq bir hissəsi onları ilk bron etmiş şəxslərə satılıb. Öncədən elan edildiyi kimi satışdan əldə olunan vəsait də bölgələrdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatına sərf olunacaq. Sosial Xidmətlər Agentliyi tərəfindən son bir ildə 6 min 600-dək şəxsin səyyar formada sosial-məişət, 400 nəfərin sosial-hüquqi xidmətlərlə təmin edildiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, sosial xidmət müəssisələrində ötən il 3 mindən, bu il 2 min 300-dən çox şəxsə, həmçinin qurumun layihələri üzrə 4 minə yaxın uşağa reabilitasiya yönümlü sosial xidmətlər, 120 ahıla günərzi xidmətlər göstərilib. Həssas qruplar üçün keçən il və bu il daha 3 günərzi qayğı mərkəzi açılıb, qarşıdakı dövrdə günərzi qayğı mərkəzləri şəbəkəsi daha da genişlənib. 2022-ci ildən indiyədək 242 uşaq övladlığa verilib. Bu il himayədar ailə modelinin tətbiqinə başlanılacaq.

Kollegiyada, həmçinin Sosial Dəstək Mərkəzi tərəfindən görülən işlər, övladlarını dövlət uşaq müəssisələrinə yerləşdirmiş ailələrlə bağlı aparılan reinteqrasiya tədbirləri diqqətə çatdırılıb. Dövlət uşaq müəssisələri məzunlarının, şəhid ailələrinin üzvlərinin, həssas qruplardan olan uşaqların sosial-psixoloji dəstəklə təminatı ilə bağlı mərkəzin layihələrindən bəhs olunub.

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın təhlil və tədqiqat işləri, ixtisaslaşdırılmış təlim mərkəzi kimi fəaliyyətinin təkmilləşdirilməsi işləri diqqətə çatdırılıb. Həmçinin observatoriya tərəfindən övladlığagötürmə, beynəlxalq və icitmaiyyətlə əlaqələr və s. sahələrdə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

***Z.HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# İnformasiya mübarizəsində mühüm silah –Vikipediya

**Bir çox azərbaycanlının evində sovet ensiklopediyasının nüsxələri var. İndi Milli Ensiklopediyamız da işıq üzü görüb. Lakin bir ensiklopediya da var ki, bunların hamısından daha çox əlçatandır. Bu, vikipediya adlanır. Vikipediya internetdə azad şəkildə yayımlanan, dünyanın bir çox dillərində viki texnologiyasının tətbiqi ilə könüllü istifadəçilər tərəfindən yaradılan azad onlayn ensiklopediyadır.**




Layihənin tarixi 1999-cu ildən başlasa da, 2001-ci ilin 15 yanvar tarixindən internetdə fəaliyyət göstərməyə başlayır. Ensiklopediyanın adı ingilis texniki termini olan "wiki" (saytın fəaliyyətinin əsasını təşkil edən texnologiya; söz özü havay dilində "tez" deməkdir) və "encyclopedia" (ensiklopediya) sözlərindən yaranıb. Qısası tez, tezləşdirilmiş ensiklopediya, hamının daxil olub məlumat götürə biləcəyi onlayn məkan. Burada hər mövzuda, hər hansısa şəxsiyyət barədə məqalələr yaratmaq imkanları var.

Məqalələr necə yaradılır?

Mütəxəssislər qeyd edirlər ki, əslində, vikipediyada məqalələrin yazılması olduqca asandır və HTML səhifələrindən fərqli olaraq xüsusi biliklər tələb etmir. Mündəricatın yaradılması, keçid və şəkillərin əlavə edilməsi, şablonlar və digər funksiyalar avtomatlaşdırıldığından məqalələri qısa müddət ərzində asanlıqla yaratmaq mümkündür. Şərtlərdən ən əsası budur ki, hər zaman neytral mövqedən çıxış etmək və yazılan məqalələrin mənbəyini göstərmək lazımdır. Bu idarəçilərin və oxucuların sizin məqalənizə olan etimadını artıracaq və mümkün mübahisələrin qarşısını alacaq. Mənbələri "Mənbə", "Xarici keçidlər", "İstinadlar" başlıqlı bölüm(lər)də sadalamaq lazımdır. Qeyd edək ki, burada vacib məqamlardan biri müəllif hüquqlarıdır. Əgər əlavə etdiyiniz məqalə, şəkil və ya media faylının bir neçə il sonra ensiklopediyadan xaric olunmasını istəmirsinizsə, müəllif hüquqlarının qaydalarına riayət etmək gərəkdir.

Hazırda vikipediya dünyada işlənən dillərin, demək olar ki, hamısında, dəqiq desək, 281 dildə məqalələri özündə birləşdirir. Lakin bu, o demək deyil ki, məlumatlar bütün dillərdə var. Bu, həmin ölkənin, xalqın virtual maariflənməyə marağına, həmin resurslarla işləmə həvəsinə də bağlı olan məsələdir. Bəs azərbaycandilli seqmentdə vəziyyət necədir? İş aparılırmı? Bu məsələdə inzibati resurslar köməyə gəlirmi?

Beləliklə, vikipediya platformasına informasiya mübarizəsində yer alan mühüm vasitələrdən biri kimi yanaşmaq lazımdır. Məlumatların çoxaldılmasını vikipediya rəhbərliyi də istəyir. Onlar, hətta Azərbaycan dilində vikipediya istifadəçilərinə müraciət də ünvanlayıblar. Müraciətdə təklif olunur ki, azərbaycandilli vikipediyanın zənginləşdirilməsinə, orada məqalə sayının artırılmasına hamı öz töhfəsini versin. Odur ki, belə mütərəqqi virtual maarifləndirmə trendindən geri qalmaq olmaz!

***Anar TURAN, "Xalq qəzeti"***

**Ekspert rəyi**

**Elnur HÜSEYNOV,**
**AMEA Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin baş mütəxəssisi:**



– Öncə onu qeyd edək ki, azad ensiklopediya olan vikipediya könüllülük prinsipi əsasında formalaşıb və mənbələr çoxaldıqca yaradılan məqalələrin də zənginliyi artır. Əlbəttə, yaxşı olar ki, vikipediyanın dirçəlməsi üçün inzibati resurslardan istifadə edilsin və bu geniş şəkildə tətbiq olunsun. Yəni vikipediyaya bir sənət, bir ideoloji iş kimi baxmaq lazımdır. Amma, əlbəttə ki, mütəxəssislərin, məlumatlı insanların bu sahədə töhfə verməsində fayda var.

Bu, gün vikipediyanın Azərbaycan və xarici dil bölmələrində sistemli fəaliyyəti özünü göstərir. Bu, onu göstərir ki, könüllülər, idarəçilər öz üzərlərinə düşən işi həyata keçirirlər. Hər gün onlarla məqalə yaradılır və redaktəyə ehtiyacı olan yazılar əsaslı şəkildə zənginləşdirilir. Təkcə 2022-ci ildə Azərbaycan dilli bölmədə 300 milyondan çox izlənmə olub. Artıq bu günə qədər 191 min məqalə yaradılıb. Yaxşı nəticədir. Nə qədər çox məqalə yaradılarsa, doğma dilimizdə istənilən mövzunu əlçatan edər. Bir zamanlar eşidirdik ki, ana dilimizdə məqalələr yoxdur və olsa da, zəifdir. Ancaq bu gün bunu demək olmaz. Artıq geniş məzmunlu, ciddi mənbələrə söykənən məqalələr çoxdur. Vikipediyada keyfiyyətlə kəmiyyətin uzlaşdırılmasına üstünlük verilməlidir. Xüsusilə xarici dil bölmələrində Azərbaycan mədəniyyətinə, tarixinə, ədəbiyyatına və mövzulara aid məqalələrin yaradılması həqiqətlərimizin dünyaya çatdırılması baxımından çox əhəmiyyətlidir.


# "Binəqədi Təmir Tikinti" ASC səhmdarlarının nəzərinə!

22 may 2023-cü il saat 9.00-da "Binəqədi Təmir Tikinti" ASC-nin növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclas Bakı şəhəri, Binəqədi rayonu, 1-ci Mədən küçəsi, 1288- ci məhəllədə keçiriləcəkdir.

**İclasın gündəliyi:**
1. ASC-nin 2022- ci il üçün illik hesabatı.
Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.
Telefon–(012 -411-72-21).

***Müşahidə şurası***



## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

# Azərbaycan Turizm və Menecment Universiteti

## *2023/2024-cü tədris ili üçün doktoranturaya və dissertanturaya qəbul elan edir*

Azərbaycan Turizm və Menecment Universiteti Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli sərəncamı ilə təsdiq olunmuş plana əsasən 2022/2023-cü tədris ili üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir. Fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya sənədləri 2023-cü il aprelin 12-dən mayın 16-dək hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9.00-dan 17.00-dək ATMU-nun əsas korpusunda Elm və İnnovasiya şöbəsinə (I mərtəbə, 105-ci otaq) təqdim etmək olar. Sənəd təqdim edənlər üçün həmçinin elektron formada Elm və Təhsil Nazirliyinin **Portal.edu.az** saytından da qeydiyyatdan keçmək mütləqdir.

**Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**
- ərizə (ATMU rektorunun adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- fəlsəfə doktoru elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üçün).

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə yolu ilə qəbul olunurlar. Doktoranturanın tam kursunu bitirən şəxs eyni ixtisas üzrə təkrarən doktoranturaya qəbul edilə bilməz. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün q üvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər. Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfə fənnindən imtahana buraxılırlar. Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar.

**Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

**Dissertantlıq** yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

**Elmlər doktoru proqramı üzrə doktoranturaya** seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağı bacaran və fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

**Qeyd-fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən** iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər. Xarici dildən imtahanlar Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü ilin iyun ayında keçirilməsi planlaşdırılır.

***Sənədlər ayrıca qovluqda müvafiq tələblərə uyğun hazırlanıb şəxsən təqdim edilməlidir.***

Azərbaycan Turizm və Menecment Universiteti, Elm və İnnovasiya şöbəsi.

Ünvan-AZ 1072, Bakı şəhəri K.Rəhimov küçəsi 822/23-cü məhəllə.

Telefon – (+994) 012-564-42-33 (daxili 125), Email: h.qasimli@atmu.edu.az

© Bütün hüquqlar qorunur. Xəbərlərdən istifadə edərkən www.atmu.edu.az saytına istinad zəruridir.


## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
## Azərbaycan Turizm və Menecment Universitetinin

### *2023-Cü il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul planı*

| İxtisasların şifri | İxtisasların adları | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktorant hazırlığı üzrə qəbul planı | | | | | dissertant hazırlığı üzrə qəbul planı | | | doktorant hazırlığı üzrə qəbul planı | | | | | dissertant hazırlığı üzrə qəbul planı | | |
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | Dövlət sifarişi | | Ödənişli əsaslarla | | | Dövlət sifarişi | Ödənişli əsaslarla | | Dövlət sifarişi | | Ödənişli əsaslarla | | | Dövlət sifarişi | Ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 5304.01 | İqtisadi fəaliyyət növləri | 1 | 1 | - | - | - | 1 | - | 1 | - | - | - | - | - | - | - | - |
| 5308.01 | Ümumi iqtisadiyyat | 2 | 1 | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5312.01 | Sahə iqtisadiyyatı | 2 | 1 | - | - | 1 | - | - | - | 1 | - | - | - | 1 | - | - | - |
| 5708.01 | German dilləri | 1 | - | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5901.01 | Beynəlxalq münasibətlər | 2 | - | - | 1 | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | 1 | - | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 6219.01 | Kulturologiya və onun ümumi məsələləri | 1 | 1 | - | - | | 1 | - | 1 | - | - | - | - | - | - | - | - |
| 6220.01 | Muzeyşünaslıq | 1 | - | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 6307.01 | Sosial dəyişiklik və inkişaf | 1 | 1 | - | - | - | 1 | - | 1 | - | - | - | - | - | - | - | - |
| 6310.01 | Sosial problemlər | 2 | - | - | 1 | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5909.01 | Dövlət idarəçiliyi | 1 | 1 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| | CƏMİ | 15 | 6 | - | 2 | 7 | 3 | - | 3 | 1 | - | - | - | 1 | - | - | - |

SOSİAL ŞƏBƏKƏLƏRDƏN SEÇMƏLƏR



# Uşaq avtobusun dalınca qaçırdı...

## PPX-nin əməkdaşları azyaşlının köməyinə çatdılar

**Bu günlərdə Nizami Xəzər Hasiloğlu adlı bir nəfər özünün "Facebook" səhifəsində Sumqayıtda şahidi olduğu ibrətamiz bir hərəkət barədə "Bu gün şahidi olduğum hadisədən çox duyğulandım..." sərlövhəli paylaşım yerləşdirib. Orada deyilir:**

"Sumqayıtda "Əşya bazarı" adlanan ərazidə bir azyaşlı uşaq çiynində çantası ilə 10 nömrəli marşrutun arxasınca qaçırdı ki, avtobusa minib gedəcəyi ünvana tez çatsın. Avtovağzalın yaxınlığından təxminən beş yüz metr qaçdı.

Sürücü ya onu görmürdü, ya da dayanacaq deyil deyə saxlamırdı. Bu an ərazidə xidmət aparan Sumqayıt şəhər Polis İdarəsinin PPX-nin (Post Patrul Xidməti) əməkdaşları yağışlı havada üst-başı islanmış və təngnəfəs olmuş uşağı yoldan götürərək avtobusa çatdırdılar. İnanın, həmin an gözlərim doldu. Düzü, həmin PPX əməkdaşlarını tanımıram. Amma, çox təşəkkür edirəm".

Bu kiçik qeydlərlə bağlı "Facebook"a çox sayda rəylər daxil olub. Onların demək olar ki, hamısında həmin polis əməkdaşlarının bu nəcib hərəkəti təqdir olunur. Məsələn, Nicat Dadaşov adlı bir nəfər hadisəyə münasibətini bu sözlərlə bildirib: "Həqiqətən, vicdanlı polislərimiz çoxdur ki, az deyil".

Sosial şəbəkə izləyicisi Əminə Abdullayeva isə düşüncələrini daha pafoslu şəkildə ifadə edib: "Eşq olsun polislərimizə!"

Yeri gəlmişkən, paylaşım gözəl lirik bir musiqi ilə müşayiət olunur. Bu məqamın özü də "Facebook" izləyicilərinin diqqətindən yayınmayıb. Onların bir neçəsi paylaşımı müşayiət edən lirik musiqi parçasına görə də müəllifə ayrıca təşəkkür etməyi özlərinə borc biliblər.

Sonda bir məqama da diqqət yetirmək istəyirəm. Böyük ehtimalla haqqında bəhs olunan polis əməkdaşları sosial şəbəkədə populyarlaşan paylaşım barədə eşidiblər. Amma bunu "biz etmişik" deyib "forslanmağı" özlərinə rəva görməyiblər. Biz də adlarını bilmədiyimiz Sumqayıt polislərinə həmin ictimai asayiş əməkdaşlarına ürəkdən deyirik: Çox sağ olun!

***Hazırladı:***
***M.HACIXANLI, "Xalq qəzeti"***

İDMAN XƏBƏRLƏRİ

# Polşada 7 medal

***Bu günlərdə Polşanın Krakov şəhərində batut gimnastikası və tambling üzrə onuncu Vavel beynəlxalq turniri keçirilib. Azərbaycan Gimnastika Federasiyasının məlumatına görə, yarışda ölkəmizi həm batut gimnastikası, həm də tambling üzrə təmsil edən idmançılarımız uğurla çıxış edərək komandamızın aktivinə dörd qızıl, iki gümüş, bir bürünc medal yazdırıblar.***



Federasiyanın məlumatına görə, ölkəmizi təmsil edən 10 idmançımızın hər biri finalda mübarizə aparmaq imkanı qazanıb. Yığma komandamızın üzvü Ammar Baxşaliyev (13-14 yaş, batut gimnastikası), Nicat Mirzəyev (15-16 yaş, batut gimnastikası), Aleksey Karataşov (15-16 yaş, tambling) və Bilal Qurbanov (böyüklər, tambling) bütün rəqiblərini üstələyərək qızıl medal sevincini yaşayıblar.

Fərhad Mustafayev (11-12 yaş, batut gimnastikası) və Tofiq Əliyev (böyüklər, tambling) yarışı gümüş medalla başa vurublar. Böyüklər arasında qüvvəsini sınayan tamblinqçimiz Adil Hacızadə isə bürünc medala layiq görülüb.

Hüseyn Əsədullayev (tambling, böyüklər) və Əli Niftəliyev (15-16 yaş, batut gimnastikası) medalın bir addımlığında büdrəyərək çıxışını 4-cü pillədə yekunlaşdırıb.

Batut gimnastikası üzrə təmsilçimiz İbrahim Mustafazadə isə 13-14 yaş kateqoriyasında təsnifat mərhələsini 1-ci pillədə başa vuraraq finala adlasa da, həlledici mərhələdə təəssüf ki, istədiyi nəticəni əldə edə bilməyib. İdmançımız 8-ci pillədə qərarlaşıb.




# MOK-da beynəlxalq seminar

***Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında "Olympic Solidarity" və "World Athletics" təşkilatlarının dəstəyi ilə atletika üzrə 1-ci dərəcəli məşqçilərin beynəlxalq seminarına start verilib.***

Seminarın əsas məqsədi Azərbaycanda atletika idman növünün inkişaf etdirilməsinə, atletika üzrə məşqçilərin peşəkarlıq səviyyələrinin artırılması, bilik bacarıqlarının təkmilləşdirilməsi, yeni və müasir tədris metodlarının aşılanmasıdır. Seminarın ilk günündə məşqçilərə nəzəri məlumatlar verilib.

Seminarın açılışında Azərbaycan Atletika Federasiyasının baş katibi Məhərrəm Sultanzadə və Atletika üzrə yığma komandanın baş məşqçisi Behruz Salehli çıxış edərək iştirakçılara uğurlar diləyiblər.

Qeyd edək ki, seminar nəzəri və praktiki hissələrdən ibarət olmaqla aprelin 13-dək Milli Olimpiya Komitəsinin inzibati binasında və Respublika Olimpiya Mərkəzində davam edəcək. Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim olunacaq.

Seminarı I dərəcəli beynəlxalq mühazirəçilər - Hakim İbrahimov və Qılınc Əhmədov aparacaqlar.

**Elçin AĞAMİRZƏ,**
**"Xalq qəzeti"**

# Disleksiya – korazehinlik



**Digər adı öyrənmə pozuntusu olan "disleksiya" sözü termin olaraq ilk dəfə 1887-ci ildə oftalmoloq Rudolf Berlin tərəfindən təqdim olunub. O, bu termini bütün fəaliyyət sahələrində normal intellektual və fiziki qabiliyyətlərinə baxmayaraq, oxumağı və yazmağı öyrənməkdə çətinlik çəkənlər üçün istifadə edib. "Söz korluğu" kimi də tanınan bu problem illər keçdikcə daha dərindən öyrənilməyə və təkmilləşdirilməyə başlanılıb.**

Bu barədə Avropa Disleksiya Birliyinin və Türkiyə Disleksi Dərnəyinin rəsmi təmsilçisi Təranə Möhsünova ilə söhbətləşdik. Azərbaycanda bu sahə üzrə ilk təlimçi, Disleksiya və Uşaq İnkişaf Mərkəzlərinin yaradıcısı olan gənc müəllim T. Möhsünova artıq altı ildir ki, peşəkar səviyyədə bu təlim növü ilə məşğul olur. Həmsöhbətim, həmçinin disleksiya ilə bağlı bir neçə dəyərli kitabların da müəllifidir.

**– Zəhmət olmasa deyərdiniz, disleksiya nədir və yaranma səbəbləri hansılardı?**

– Disleksiya öyrənmə çətinliyidir. Əsasən oxu bacarıqları üzərində formalaşıb və hər hansı sahədə olan öyrənmə pozuntusudur. Bu hala üstün və normal zəkaya sahib olan insanlarda daha çox rast gəlinir. Disleksiyanın yaranmasının iki səbəbi var: genetik və sosial.

Genetik baxımdan araşdırmalara görə, ana hamiləlik dönəmində hər hansı ciddi xəstəlik keçirib və ya travma yaşayıbsa, ata narkotik və ya alkoqollu içkilərdən aşırı dərəcədə istifadə edibsə, bu, yeni doğulan körpədə ən yaxşı halda disleksiya ilə nəticələnə bilir. Bu cür xəstəlikdən əziyyət çəkən uşaqların problemi müxtəlif oyunlar və dinləmələr vasitəsilə həll olunur.

Sosial amilə isə erkən doğum və ya dünyaya gələn körpənin çəkisinin az olması, sarılıq keçirməsi, ağır infeksiyalara məruz qalması, gec danışması və s. aiddir. Amerika Psixiatriya Assosiasiyasının tibbi diaqnoz təsnifat sisteminə uyğun olaraq bu diaqnoz uşaq psixiatrı tərəfindən 6 yaşdan sonra – məktəb dövrü başlayanda qoyulur. Disleksiya - öyrənmə çətinliyi ömür boyu davam etdiyi üçün, demək olar ki, bütün yaş aralıqlarında olan insanlarda bu halla rastlaşırıq.

**– Hər peşənin özünəməxsus çətinlikləri olur. Maraqlıdır, bu sahədə hansı çətinliklər var?**

– Qeyd edim ki, disleksiya ilə məşğul olmaq özü çətin bir prosesdir. Buna görə də, bu uşaqlarla işləmək çox böyük diqqət və səbir tələb edir. Təlim prosesi zamanı onlarda öyrənməyə qarşı biganəlik hissi olur. Buna görə də, dərs oxuyan zaman qızdırması qalxan, ürəyi bulanan, tez-tez sidik açıran, epilepsiyası olan uşaqlara tez-tez rast gəlinir.

**– Siz paytaxtla yanaşı, bölgələrimizdə də disleksiya ilə bağlı təlimlər keçirirsiniz. Bu barədə qısa məlumat verərdiniz.**

– Rayonlarda istər müəllimlər, istərsə də pedaqoqlar olsun, bu sahə üzrə bilikləri olduqca aşağı səviyyədədir. Buna görə də biz mərkəz işçiləri olaraq bununla bağlı tez-tez bölgələrimizə səfər edir, təmənnasız təlimlər keçirik. Həmçinin onları disleksiya sahəsində olan yeniliklərlə tanış edir, təlim vəsaitləri ilə təmin edirik.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto),***
***"Xalq qəzeti"***

Sağlamlıq guşəsi

## Yod çatışmazlığı xəstəlikdir

**Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünya əhalisinin 54 faizi yod çatışmazlığının yaratdığı xəstəlik riski ilə yaşayır. Endokrinoloqlar yod çatışmazlığı zamanı uşaqlarda boy artımı problemi, zəka geriliyi, böyüklərdə isə tiroid vəzində böyümə, hipotiroid kimi xəstəliklərin ortaya çıxdığını bildirirlər.**



Sağlam beyin inkişafı və böyümənin təməl daşlarından olan tiroid hormonlarının artması üçün orqanizm kifayət qədər yod qəbul etməlidir. Yod orqanizm tərəfindən istehsal olunmadığından bədənin yod ehtiyacı dəniz məhsulları, ət, süd məhsulları, yumurta kimi qidaları yeməklə aradan qaldırılır. Əgər qidalanma yolu ilə bədənin yod ehtiyacı tamamlanmırsa, problem xronikiləşir, problemlər yaranır. Yod çatışmazlığının səbəb olduğu tiroid xəstəliklərinin önündə zob xəstəliyi (qalxanvari vəzinin böyüməsi) gəlir. Statistikaya görə, dünyada 740 milyon insan bu xəstəlikdən əziyyət çəkir.

***Əlamətləri...*** Tiroid hormonu azaldıqda metabolizm zəiflədiyi üçün çəki artmağa başlayır. İnsan az yemək yesə də, kökəlir. Həmçinin halsızlıq, dəridə quruluq, saç tökülməsi, dəri qalınlaşması, qəbizlik, soyuğa qarşı dözümsüzlük, saç və dırnaqlarda qırılma, unutqanlıq yaranır. Daha irəliləmiş vəziyyətlərdə isə özünü idarətmə problemi, depressiya, həssaslıq, ürək və ağciyər çatışmazlığı yarana bilər. Yod çatışmazlığının qadınlardakı ən çox müşahidə edilən ağır təsirlərindən biri sonsuzluqdur. Yarımçıq hamiləlik, erkən doğuş, doğuş anomaliyaları, uşaqda zəka və inkişaf geriliyi, eşitmə və danışma pozuntuları müşahidə edilir. Dünyada hər il doğulan təxminən 50 milyon uşaq analarının qida rasionunda kifayət qədər yod olmadığından zəka geriliyi riski ilə qarşılaşır.

***Müalicəsi...*** Yod çatışmazlığı zamanı hər şeydən əvvəl tərkibi yodla zəngin olan qidalar – dəniz kələmi, feyxoa, xurma, yumurta, balıq, hinduşka filesi daha çox yeyilməlidir. Təbii dəniz və daş duzu isə əhəmiyyətli yod qaynağıdır. Yeməkdə yodla zənginləşdirilmiş duzun da rolu böyükdür. Bu məqsədlə çox duz istifadə etməyə ehtiyac yoxdur. Sadəcə gün ərzində 2 qram yodlu duz qəbulu bəs edir. Yodlu duz quru yerdə, qapalı qablarda saxlanmalıdır. Ən əsanı, duz yeməyə bişdikdən sonra tökülmədilir. Təbii yolla orqanizmin yod ehtiyatı qaydaya düşməyəndə, həkimin tövsiyəsi ilə dərmanla müalicəyə başlanılır.

## Çirklənmə zəhərlənmədir

**Bədənin müxtəlif mənbələrdən çirklənməsi nəticəsində insan müxtəlif sinir sistemi və orqanların xəstəliklərinə tutulur. Orqanizm zəhərləndikdə nələr baş verir?**

***Ümumi yorğunluq:*** Ən çox oturaq həyat tərzi keçirənlər arasında yayılıb. Bu, xəstəliyin ilkin siqnalıdır. Baş ağrıları ilə müşahidə olunan ümumi yorğunluq və ağrılar o zaman baş verir ki, birinci mərhələdə, oturaq həyat tərzi keçirən insan aktiv həyat tərzinə keçmir.

***Durğunluq:*** Bağırsaqlarda şiş, polip, daş, piylənmə yaranır və zəhərlənmə baş verir. Bu, ən geniş yayılmış orqanizm zəhərlənməsidir. Zəhərlənmə müşahidə edilən vaxt orqanizm təmizlənməsə kist, lipom fibroma, adenoma kimi xəstəliklər inkişaf edir. Bu zaman artıq cərrahi müdaxiləyə ehtiyac olur və əməliyyatla orqanizm qismən zəhərlənmədən azad edilir.



***Orqan deformasiyası:*** Forma və funksiyasını dəyişən ateroskleroz, revmatizm, poliartrit nəticəsində də orqanizmdə zəhərlənmə müşahidə edilir. Adətən ürək, qan-damar xəstəlikləri ilə müşayiət olunan bu zəhərlənmədə əsas səbəb qanda xolesterinin yaranmasıdır. Vaxtında qarşısı alınmazsa, bu zəhərlənmə insanı ölümə sürükləyir.

**Z.BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

# Arıqlamağa qarşı qanun

**İtaliya hökuməti son zamanlar arıqlamaq üçün iştahasızlıq yaradan dərmanları və yeməkdən imtinanı təbliğ edənləri cəzalandıran qanun layihəsi hazırlayıb.**



İtaliyanın Qardaşları Partiyası (FdI) tərəfindən təqdim edilən qanun layihəsində həddindən artıq zəifliyi təbliğ edənlərin 2 ilə qədər həbs cəzası və 60 min avroya kimi cərimələnməsi nəzərdə tutulur. Zərərli dərmanların qurbanlarının 14 yaşından kiçik olduğu halda həbs cəzasının 4 ilə qədər uzadılacağı və cərimənin 150 min avro təşkil edəcəyi bildirilir.

Qanun layihəsini açıqlayan senator Alberto Balboni sosial media da daxil olmaqla, hər vasitə ilə anoreksiya (hədsiz arıqlama) və bu kimi xəstəlikləri təbliğ edənlərə "təzyiq" edəcəklərini bildirib. Bundan əlavə, İtaliya mətbuatı, həddindən artıq arıqlığı təşviq edən sosial media blogerlərinin hədəf alınacağını da açıqlayıb.

Senator ölkədə hər il təxminən 4 min insanın bu xəstəliklərdən öldüyünü və onların əksəriyyətinin gənclər olduğunu deyib və bunu "sosial xəstəlik" adlandırıb.

Bununla bərabər, Qanun layihəsi müxalifət və ekspertlər tərəfindən tənqidlə qarşılanıb. Belə ki, müxalifət partiyasından millət vəkili Çiara Qribaudo senator Balboninin anoreksiyanı "drama" çevirərək cəza qanunu təbiq etməyə cəhd etsə də, digər xəstəliklərdən əziyyət çəkənlərə dəstək üçün "bir avro" belə ayırmadığını söyləyib.

***Səadət RZAYEVA,***
***"Xalq qəzeti"***



# Loqo dəyişikliyi Maska qazanc gətirir

**Məşhur iş adamı İlon Mask "Twitter"in saytındakı loqosunu dəyişərək "Dogecoin" ilə əvəzləyib.**

Saytına daxil olduğunuz zaman yuxarı sol küncdəki "Dogecoin" loqosunu görə bilərsiniz. Bundan başqa, sözügedən dəyişiklik yalnız internet saytındadır. Mobil tətbiqdə isə heç bir dəyişiklik yoxdur.

Qeyd edək ki, loqonun saytda yerləşdirilməsi ilə kriptovalyutanın dəyəri artıb. Belə ki, bu müddətdə "Dogecoin"in qiyməti, təxminən, 25 faiz çoxalıb. Kriptovalyuta yeniləmədən sonra 7,7 sentdən 10,2 sentə yüksəlib və "Doge" etiketi "Twitter"də də populyarlaşıb.

İlon Maskın "Twitter" loqosunun saytda nə vaxt bərpa edəcəyi barədə isə hələlik heç nə məlum deyil.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

# HAVA PROQNOZU

**Aprelin 5-də**

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 6-9°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 17-22° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2-7°, gündüz 10-15° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2-7°, gündüz 8-13° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 18-23° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 15-20°, dağlarda gecə 0-5°, gündüz 10-15° isti olacaq.

✓ **Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 17-22° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 15-20°, dağlarda gecə 6-10°, gündüz 12-16° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN

"Azərsu" ASC-nin kollektivi səhmdar cəmiyyətin əməyin və əmək haqqının təşkili şöbəsinin iqtisadçısı Rəhman Novruzluya atası

**ŞADMAN NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4845
SİFARİŞ 816
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00